

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Azərbaycanın qürurla andığı qadın: Zərifə xanım Əliyeva



4

SƏS

№ 064 (6989)

16 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

# Gəncənin gözəlliyinə naxış salan məkanlar



2

İlham Əliyev: "Bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur"

# TERRORDA FRANSA İZİ




5

## "Böyük Qayıdış"ın reallaşması strateji məqsədlərlə bağlıdır



9

## Transxəzər, Orta Dəhliz və...



10

## Süni qiymət artımına hansı amillər təsir göstərir?



11

## Qırmızı Xaç, yoxsa erməni xaşı?



12

## Əli Kərimli və dəstəsi təxribatlar planlaşdırır



13

# Gəncənin gözəlliyinə naxış salan məkanlar

## İlham Əliyev: "Bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur"

Özünün ictimai-siyasi, sosial-iqtisadi həyatında uğurlar əldə edən Azərbaycan dünya miqyasında sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə, bütün sahələrdə əldə edilən yüksək göstəricilər və nəticələr ölkəmizin qüdrətini daha da artırır. Bu nailiyyətlər müstəqil dövlətimizin sürətli inkişafına təkan verən uzaqgörənliklə hazırlanmış inkişaf strategiyasının uğurlu tətbiqinin nəticəsidir. Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, layihələr, aparılan uğurlu islahatlar bütün bölgələrimizin inkişafına, müasirləşməsinə səbəb olub. Azərbaycanın hər yerində olduğu kimi, bu gün qədim tarixə malik olan Gəncə də yeni inkişaf dövrünü yaşayır. Gəncə Azərbaycanın qədimliklə müasirliyi, Şərq memarlıq üslubu ilə Qərb modernizmini üzvi şəkildə birləşdirən şəhərlərindən birinə çevrilib. Yeni yollar salınır, infrastruktur layihələr reallaşır, yeni parklar yaradılır. Azərbaycan Prezidenti Cənab İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə dəfələrlə Gəncədə olması və daim Gəncəyə diqqət göstərilməsi onun inkişafına müsbət təsirini göstərib. Dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsidir ki, şəhər inkişaf edir. Şəhərdə həyata keçirilən tədbirlər nəticəsində yeni tikililərlə yanaşı, qədim, tarixi abidələr yenidən bərpa edilir. Ölkə başçısının Gəncəyə səfərləri çərçivəsində bir sıra obyektlərin açılışında iştirak edib.







### QƏRB BÖLGƏSİNDƏ GƏNCƏ ŞƏHƏRİNDƏ SALINAN İLK EKOLOJİ PARK

Bu gün Gəncənin gözəlliyinə naxış salan məkanlarının sayı kifayət qədərdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin aprelin 9-da Gəncə şəhərinə səfəri və görülən işlərlə tanışlıq buranın inkişafına xüsusilə töhfələrini verir. Cənab Prezident Qərb bölgəsində ilk dəfə Gəncə şəhərində salınan Ekoloji Park Kompleksi ilə tanış olub. Kompleksdə son tamamlama işləri həyata keçirilir. Kompleksin tikintisinə və onun ətrafında abadlıq işlərinə 2021-ci ilin dekabrında başlanılıb. Gəncəçay çayının sağ sahilində yerləşən kompleks 11 hektar ərazini əhatə edir.

Unikallığı ilə seçiləcək kompleksdə insanların rahatlığı və asudə vaxtlarını daha səmərəli keçirmələri üçün bütün lazımi şərait yaradılır. Kompleksə sahəsi 1285 kvadratmetr olan ikimərtəbəli oranjereya binası daxildir. Binanın əsas hissəsi dəmir-beton, metal və şüşə-vitraj konstruksiyalarla yığılıb. Fərqli dizaynı ilə seçilən kompleksdə turistlərin rahatlığı üçün bütün şərait yaradılır. Burada bütün fəsillərdə müxtəlif növ nadir gülçiçək, kol bitkiləri, eləcə də ağac tingləri yetişdiriləcək. Bu işi həyata keçirmək üçün oranjereya binasının daxilində bitkilərin normal inkişafını təmin edəcək xüsusi havalandırma sistemləri quraşdırılıb. Hazırda binada 7 növ ağac, 16 növ gül, 8 növ kol, 9 növ isə kaktus bitkisi əkilib.

Kompleksin ərazisində yeni yollar çəkilib, avtomobil dayanacağı salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb, yağış və damcı suvarma sistemləri ilə təchiz olunmuş istixanalar tikilib. Ekoloji Parkın Gəncə çayı tərəfdəki ərazisində yüzlərlə şərv ağacı əkilib, binanın ətrafına isə mozaika daşları döşənib.

Bu gün yeni inkişaf dövrünü yaşayan Gəncədə sosial məsələlər öz həllini tapıb, infrastruktur yenilənib, şəhərdə abadlıq-quruculuq işləri aparılıb. Belə ki, asfalt yolları, müasir məktəbləri, poliklinikaları var, qazlaşdırma, enerji ilə təminat 100 faizdir. Azərbaycan Prezidenti çıxışlarını birində "Son illərdə biz Gəncənin əsas infrastruktur layihələrini icra etməyə çalışdıq və bu layihələrin böyük əksəriyyəti öz həllini tapdı", - deyə bildirib.

### İDMANIN KÜTLƏVİLİYİ TƏMİN EDİLİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gəncə İdman Sarayının açılışında iştirak edib. Uzun illərdir ölkəmizdə Olimpiya və idman hərəkatı geniş vüsət alıb. Ötən illərdə Azərbaycanda onlarla Olimpiya İdman Kompleksi və digər idman qurğuları tikilib. Bu isə ölkəmizdə idmana marağı artırıb, gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar yaradıb. Gəncədə istifadəyə verilən İdman Sarayı da bu qəbildən layihələr arasında xüsusi yer tutur.

Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən inşa edilən Gəncə İdman Sarayının tikintisinə 2018-ci ilin iyununda başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin martında tam başa çatdırılıb. Gəncə İdman Sarayı müasirliyi ilə diqqəti cəlb edir. Ümumi sahəsi 40 min kvadratmetrə yaxın olan İdman Sarayında bütün zəruri infrastruktur yaradılıb. Böyük zalda beynəlxalq standartlara uyğun olaraq basketbol, voleybol, həndbol, minifutbol və atletika oyunlarının keçirilməsi nəzərdə tutulub. Bu zalda 2200 nəfərlik sabit oturacaq yeri olan tribuna, 850 nəfərlik mobil oturacaq və fiziki məhdudiyyəti olan tamaşaçılar üçün 20 yer ayrılıb. Burada, həmçinin VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələr və konfrans zalı yaradılıb. İdman Sarayındakı üzgüçülük hovuzu Beynəlxalq Üzgüçülük Federasiyasının standartlarına cavab verir. Hovuzun uzunluğu 50, eni 21 metr, dərinliyi isə 3 metrdir. Burada 4 metr, 2,2 metr və 1,2 metrə qədər qalxa bilən mobil hərəkətli döşəmə də quraşdırılıb. Zalda üzgüçülük yarışlarını 1400-dən çox tamaşaçı izləyə biləcək. Fiziki məhdudiyyəti olan tamaşaçı üçün isə 16 yerlik ərazi təşkil olunub. Üzgüçülük hovuzu da VIP bölmə, idmançılar və hakimlər üçün müxtəlif təyinatlı sahələrdən ibarətdir.

Nəhəng idman qurğusunda Beynəlxalq İdman Atıcılığı Federasiyasının (ISSF) standartlarına uyğun atıcılıq zalı, həmçinin müxtəlif ölçülü yoqa, pilates, atletika, fitnes, boulinq, masaüstü tennis, şahmat, kross-fit zalları, SPA mərkəzi, bilyard masası, uşaq otağı, 3 konfrans zalı, böyük restoran, kofebreyk bölmələri və marketlər fəaliyyət göstərəcək.

Gəncə İdman Sarayının əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Səksən nömrəsi olan mehmanxanada 160 idmançının qalması və istirahəti üçün hər cür imkan var.

Belə nəhəng idman qurğularının yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Azərbaycan idmanının yüksəlməsi,onun inkişafı da daim diqqətdə saxlanılır. Prezident İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin bütün sahələrində, eləcə də idman sahəsində böyük nailiyyətlər əldə olunub. Azərbaycan dünyanın idman arenasında artıq özünəlayiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə. Dövlət başçısının çıxışlarının birində bildirdiyi kimi, "Bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Bizim idman nəticələrimiz, uğurlarımız, qələbələrimiz, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstək, dövlət proqramlarının icrası, əlbəttə ki, beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirilir". Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitəsi, beynəlxalq federasiyalar Azərbaycanın idman sahəsindəki uğurlarını xüsusi olaraq dəyərləndirirlər.

### TAMAŞAÇI TUTUMU 15 MİN 464 YERLİK STADİON

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gəncəyə səfəri çərsivəsində Gəncə şəhər stadionunun da təməli qoyulub. 1959-1963-cü illərdə inşa edilən Gəncə şəhər stadionu 1964-cü ildə istismara verilib. Son illərdə stadionun tamaşaçı tribunaları yararsız vəziyyətə düşdüyündən və texniki cəhətdən istismarı mümkün olmadığından fəaliyyəti qismən həyata keçirilirdi.

*Ardı Səh. 3*



# Gəncənin gözəlliyinə naxış salan məkanlar

## İlham Əliyev: "Bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur"

Əvvəli Səh. 2

Stadionun ərazisində köməkçi məşq meydançaları və futbol akademiyası binası tikilib.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli Sərəncamına əsasən, Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi üçün Prezidentin ehtiyat fondundan ilkin olaraq bir milyon manat ayrılıb. Stadionun layihələndirmə işləri artıq başa çatdırılıb.

Yenidənqurma işləri çərçivəsində stadionun ərazisi genişləndirilərək 10 hektara çatdırılacaq. UEFA-nın 4-cü kateqoriya standartlarına uyğun inşa ediləcək stadionun tamaşaçı tutumu layihə üzrə 15 min 464 yerlikdir. Stadionda VVIP, VIP, SKY-box, media nümayəndələri və fiziki imkanları məhdud tamaşaçılar üçün müvafiq sayda oturacaq sahələri, futbolçular üçün soyunub-geyinmə, konfrans, tibb, hakimlər, texniki heyət üçün otaqlar və sair zəruri sahələr nəzərdə tutulur. Bir sözlə, stadionun istifadəyə verilməsi istər yerli, istərsə də beynəlxalq yarışların keçirilməsinə hərtərəfli şərait yaradacaq.

Göründüyü kimi, müasir dövrümüzdə mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Digər tərəfdən, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı idman yarışlarına ev sahibliyi edir. Bu gün ölkəmizdə Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər kəndi və bir sıra idman qurğuları var. Vətən müharibəsində düşmən işğalından azad edilmiş rayonlarımızda da idman müəssisələrinin yaradılması nəzərdə tutulur. Müxtəlif idman yarışlarının keçirilməsi üçün ölkəmizdə hər cür imkanlar yaradılıb. Son illərdə dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda 300-dən çox beynəlxalq yarış keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Bu yarışların Azərbaycanda keçirilməsi bir daha inkişaf etmiş bir dövlət olaraq, hər bir sahədə olduğu kimi, idmanda da ölkəmizə böyük imic qazandırıb. Dünyaya əminliklə bəyan etdiyi gücünü, qüdrətini və təhlükəsizlik tədbirlərinə cavabdehliyini göstərib. Cənab Prezident idman sahəsində görülən işlərin gəncləri həvəsləndirdiyini diqqətə çatdırıb: "Ümumiyyətlə, hesab edirəm ki, idman sahəsində görülən işlər gəncləri də həvəsləndirir. Azərbaycan gənclərinin idmana böyük maraq göstərməsi bizi sevindirir. Əlbəttə ki, görkəmli idmançılarımızın uğurları bizim idman şöhrətimizi daha da yüksəklərə qaldırır".

Dünya idmanının tarixində ilk dəfə keçirilən Avropa Oyunlarında Azərbaycan təmsilçilərinin 21 qızıl medalı qazanması və 21 dəfə Azərbaycan bayrağının yüksəldilməsi, Dövlət Himnini səsləndirilməsi idmana olan qayğının nəticəsi idi. Eləcə də Azərbaycanın 2017-ci ildə 4-cü İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etməsi də ölkəmizin idman arenasında söz sahibiolmasına dəlalət edir. Dünya, islam aləmi üçün çox önəmli idman yarışmasının ölkəmizdə təşkili dünya miqyasında nüfuzumuzun göstəricisidir. Daha sonra Azərbaycan velosiped idmanının BMX növü üzrə dünya çempionatını, "Formula-1" yarışlarını və və digər oyunları uğurla keçirdi. Beynəlxalq Gimnastika Federasiyasının 82-ci Konqresi, Dünya Antidopinq Agentliyinin TəsisçilərŞurası və İcraiyyə Komitəsinin iclası, Xüsusi Olimpiya Hərəkatı Gənc Liderlərin XX Qlobal Forumu çərçivəsində müxtəlifidman növləri üzrə yarışlar və digər mühüm beynəlxalq turnirlər və tədbirlər yüksək səviyyədə təşkil olundu.

Qeyd edək ki, təkcə 2022-ci il də idmançılarımız beynəlxalq yarışlarda 800-dən çox medal qazandılar, onlardan 300-ə yaxınıqızıl medaldır. Türkiyənin Konya şəhərində keçirilmiş İslam Həmrəyliyi Oyunlarında idmançılarımızın uğurlu çıxışını xüsusi qeyd etməliyik. 56 ölkənin iştirakı ilə keçirilmiş oyunlarda idmançılarımız 99 medalla 4-cü yerə layiq görüldülər. 2017-ci ildə Bakıda keçirilən 4-cü İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız tarixi qələbə qazanaraq komanda hesabında birinci olmuşdur.

Bütün bunlar, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi bu sahənin, eləcə də həmin idman növlərinin inkişafına, idmanın kütləviliyinin təmin olunmasına xidmət edir.

### QAFQAZIN ƏN QƏDİM PARKLARINDAN BİRİ - "XAN BAĞI"

Həqiqətən də Gəncə yeni dövrünü yaşayır. Əsrlərdən bəri Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də başqa ölkələrdən gələn müsəlmanların ziyarətgahı olan dini abidə "İmamzadə" Gəncənin qədimliyini sübut etməklə yanaşı, şəhərin İslam aləmindəki yerini və nüfuzunu da göstərir. Ölkənin dini-tarixi abidələrinin tamamilə yenidən qurulmasına və gələcək nəsillərə çatdırılmasına həssaslıqla yanaşan Prezident İlham Əliyev bu kompleksin təmiri və bərpasına xüsusi diqqət göstərmişdir. İnsanların inam və inanc yeri kimi üz tutduqları bu məbəd məhz dövlətimizin başçısının sərəncam və göstərişləri sayəsində belə gözəl görkəm alıb. Qafqazın ən qədim parklarından biri, yaşı 200-dən çox olan və bitki florasının zənginliyinə görə bütün ölkədə məşhur olan "Xan bağı" da bu gün yenidən qurulub. Yenidənqurma işləri ilk dəfə məhz Prezident İlham Əliyevin tapşırığı ilə həyata keçirilib. Burada fəvvarələr, müasir işıqlandırma sistemi quraşdırılıb, Venesiya guşəsi yenidən qurulub, 350 yerlik yaşıl teatr inşa olunub. Görülən işlərin davamı olaraq, dövlət başçısının Gəncəyə səfərləri tarixi hadisələrlə yadda qalır. Dövlət başçısının səfərləri çərçivəsində Gəncə Dövlət Dram Teatrının yeni binasının açılışı olub. Eləcə də Cənab Prezident ölkə üzrə sayca iyirmi ikinci 2 saylı Gəncə regional "ASAN xidmət" Mərkəzin də açılışını da edib. Gəncə şəhəri, Şəmkir, Gədəbəy, Göygöl, Goranboy, Samux, Naftalan, Kəlbəcər və Xocalı rayonlarını əhatə edən bu bölgədə qeydiyyatda olan ümumilikdə 1 milyona yaxın insan var. Mərkəz ərazi məhdudiyyəti olmadan fəaliyyət göstərir. Mərkəzdə vətəndaşlara müxtəlif dövlət qurumları, həmçinin özəl şirkət və müəssisələr tərəfindən 320-dən çox xidmət göstərilir. "Gəncənin inkişafı və şəhərin problemlərinin həlli daim diqqət mərkəzindədir. Həm də, onu göstərir ki, baxmayaraq, bizim əsas diqqət mərkəzimiz azad edilmiş torpaqlara - Qarabağa və Zəngəzuradır, eyni zamanda, bütün başqa şəhər və rayonlarımız daim diqqətlə əhatə olunur", - deyə Prezident çıxışlarının birində bildirib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# "Azərbaycanın bölgədə sülh və quruculuq istiqamətində səylərinə Ermənistan tərəfindən qarşılıq göstərilməlidir"



Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Özbəkistan Respublikasına işgüzar səfəri çərçivəsində Körfəz Əməkdaşlıq Şurası (KƏŞ) ilə Mərkəzi Asiya ölkələri arasında Strateji Dialoqun ikinci nazirlər iclasında fəxri qonaq qismində iştirak və çıxış edib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Ceyhun Bayramov Azərbaycanın qardaş Mərkəzi Asiya və KƏŞ ölkələri ilə ortaq tarixi və mədəni irsinin müxtəlif, o cümlədən siyasi, iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, nəqliyyat və s. istiqamətlər üzrə əməkdaşlığın daha da genişləndirilməsi üçün əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb.

Hazırkı qlobal transformasiya dövründə mövcud çağırışlarla mübarizə kontekstində regional əməkdaşlıq çərçivəsində KƏŞ-Mərkəzi Asiya Strateji Dialoq formatının əhəmiyyəti qeyd olunub.

Cari ildə ölkəmizin ev sahibliyi edəcəyi BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri barədə məlumat verən Ceyhun Bayramov Qoşulmama Hərəkatına sədrliyimiz dövründə olduğu kimi "Qlobal Şimal" və "Qlobal Cənub" arasında əməkdaşlığın genişləndirilməsinin əsas prioritetlərimizdən biri olduğunu bildirib. COP29-un öz növbəsində bərpaolunan enerji potensialı yüksək olan Mərkəzi Asiya ilə texnoloji imkanları geniş KƏŞ ölkələrinin əməkdaşlığının inkişafı üçün fürsət ola biləcəyi diqqətə çatdırılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, mina təhlükəsi, habelə Azərbaycan və Ermənistan arasında normallaşma prosesinin gedişatı barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov ölkəmizin bölgədə sülh və quruculuq istiqamətində səylərinə Ermənistan tərəfindən qarşılıq göstərilməsinin vacibliyini vurğulayıb.

Nazir, həmçinin Ermənistanın 30 ilə yaxın işğalı dövründə ölkəmizin mövqeyini dəstəkləyən, habelə postmünaqişə dövründə aparılan quruculuq işləri və minatəmizləmə fəaliyyətinə töhfə verən bütün tərəfdaşlara təşəkkür ifadə edib.

# Hakan Fidan və Antonio Quterreş arasında telefon danışığı olub



Türkiyənin xarici işlər naziri Hakan Fidanla Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreş arasında telefon danışığı olub. Söhbət zamanı regionda baş verən son hadisələr və Qəzza zolağındakı vəziyyət müzakirə edilib.

Bununla yanaşı, Kipr məsələsi və Qara dənizdə naviqasiya təhlükəsizliyi məsələləri ətrafında da fikir mübadiləsi aparılıb.

# Azərbaycanın qürurla andığı qadın: Zərifə xanım Əliyeva

***Bütün keyfiyyətləri ilə əsl Azərbaycan xanımı, görkəmli və eyni zamanda ən yüksək insani dəyərlərə malik həkim, Ümummilli Liderimiz Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, ölkəmizə iki layiqli övlad, eyni zamanda müzəffər sərkərdə, lider bəxş edən qayğıkeş ana obrazıdır, Zərifə xanım Əliyeva. Hər zaman nur saçan qadının həyat yoluna nəzər saldıqca gözlər qarşısında Azərbaycanın daim qürurla andığı bir qadın canlanır. Tarix məhz belə insanların sayəsində yaranır, onların nəcibləşən ömürləri gələcək nəsillərə örnək, nümunə olur.***

## Bahar ömürlü insan

Bir bahar günündə dünyaya göz açan, həyatının bütün illərini bahar ömrü yaşadığı üçün elə baharda da dünyadan köçən Zərifə xanım Əliyeva görkəmli həkim, sədaqətli və mehriban həyat yoldaşı, qayğıkeş ana, əsl insan kimi hər an gözəl duyğularla anılır.

Zərifə xanım Əliyeva qədim Naxçıvan diyarında, Şərur rayonunun Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ocağında dünyaya göz açmışdı. Uşaqlıq və ilk gənclik illəri Şahtaxtıda keçən Zərifə Əliyeva bu kəndin maarifçi mühitinin işıqlı ənənələrindən faydalanmışdı. Zəngin təhsil ənənələri olan ziyalı ailəsinin özünəməxsus tərbiyə üsulları onu hələ uşaq yaşlarından, məktəb illərindən etibarən elmə, işıqlı ideallara doğru istiqamətləndirmişdi.

O, 1942-ci ildə Bakıda orta məktəbi əla qiymətlərlə bitirmiş və elə həmin il Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdu. Ali təhsil almaq məqamında Zərifə Əliyevanın həkimlik sənətini seçməsi atası, tibb elmləri doktoru, professor Əziz Əliyevin yolunu davam etdirmək arzusundan doğmuşdursa, göz həkimliyini ixtisas kimi seçməsi onun xeyirxahlığından, işıqlı insan olmasından irəli gəlmişdi.

Fundamental tibbi biliklərə dərindən yiyələnən Zərifə xanım Əliyevanın qəlbində insanların gözlərinə nur bəxş etmək amalı baş qaldırmışdı və O, öz gələcək fəaliyyətini tibbin oftalmologiya sahəsinə həsr etməyi qarşısına məqsəd qoymuşdu. Görünür, son dərəcə zəriflik və incəlik, həssaslıq və nəciblik tələb edən göz həkimliyi Zərifə xanımın təbiətindəki nadir xüsusiyyətlərə daha yaxın idi. Zərifə xanımın timsalında bir daha sübuta yetirildi ki, peşəsini ürəkdən sevən həkim, həqiqətən, xarüqələr yaratmaq iqtidarındadır.

## Gözlərə nur həkim

Zərifə xanım Əliyeva ötən əsrin 50-ci illərində öz xeyirxah sənəti ilə əsl vətəndaş mövqeyində dayanaraq xalqımızın bəlasına çevrilmiş traxoma xəstəliyinin qarşısını almaq üçün ciddi və məqsədyönlü müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi istiqamətində mübarizəyə başlamışdı. Onun başlıca məqsədi nəyin



bahasına olursa-olsun, tezliklə Azərbaycanda traxoma xəstəliyini törədən səbəbləri aşkar edib aradan qaldırmaq, optimal müalicə üsullarını tapmaq, müvafiq profilaktik tədbirləri vaxtında həyata keçirməkdən ibarət idi. İnsanları korluq əzabından qurtarmaq zərurətindən doğan bu şəfqətli tədbirlərin həyata keçirilməsi ağır zəhmət və uzunmüddətli vaxt tələb edirdi.

Zərifə xanım Azərbaycanın bütün rayonlarını gəzərək traxoma ocaqlarını aşkar etmiş, özünün tərtib etdiyi müalicə üsullarını həyata keçirmişdir. Onun mövcud müalicə üsulları ilə yanaşı, o dövrün güclü antibiotiki hesab edilən sintomisindən istifadə etməklə müalicə üsullarını həyata keçirməsi bu ağır xəstəliyin qarşısının alınmasında başlıca rol oynamışdır.

Elmi-tədqiqat mövzusu kimi də Zərifə xanım Əliyevanın göz xəstəliklərinin müasir müalicə üsullarına müraciət etməsi insanlara və onları əhatə edən mühitə daha çox işıq gətirmək qayəsinin ifadəsidir. Zərifə xanım Əliyeva 1959-cu ildə "Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomisinlə müalicəsi" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və tibb elmləri namizədi alimlik dərəcəsi almışdır. Namizədlik dissertasiyası kimi bu mövzunun seçilməsi geniş yayılmış traxoma xəstəliyinin ən intensiv müalicə üsullarının müəyyən olunmasına və tətbiq edilib müsbət nəticələr alınmasına şərait yaratmışdır.

Elmi fəaliyyətini real həyatla üzvi surətdə əlaqələndirən Zərifə xanım Əliyeva özünün namizədlik dissertasiyası ilə həm tibb elmini yeni ideyalar və metodlarla zənginləşdirmiş, həm də yüzlərlə insana işıq bəxş etmişdir. Hələ XX əsrin 50-ci illərində Zərifə xanım tərəfindən tibb elmi üçün kəşf edilmiş, elmi cəhətdən əsaslandırılmış müalicə üsulları aradan illər keçməsinə baxmayaraq indi də tətbiq edilir və insanlara nur bəxş edir.

Zərifə xanım Əliyeva ciddi elmi-tədqiqat işləri, mürəkkəb cərrahiyyə əməliyyatları ilə yanaşı, elmi-pedaqoji fəaliyyətini də uğurla davam etdirmişdir. Görkəmli alim 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dəvət olunmuşdur. Həmin kafedranın müdiri vəzifəsində çalışan Zərifə xanım bu institutda dosentlikdən akademikliyə qədər yüksəlmişdir.

1977-ci ildə Bakıda Zərifə Əliyevanın təşəbbüsü ilə Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti İdarə Heyətinin plenumu keçirilmişdir. Bu plenum alimin daha bir keyfiyyətini qabarıq şəkildə üzə çıxarmış, tədbirin gözlənildiyindən də yüksək səviyyədə keçirilməsi Zərifə xanım Əliyevanın təşkilatçılıq bacarığının təzahürünə çevrilmişdir. Bakıda ilk dəfə olaraq belə bir ittifaq miqyaslı plenumun keçirilməsi Azərbaycanda oftalmologiya elminin yeni inkişaf mərhələsinə qədəm qoymasına güclü təkan vermişdir. Zərifə xanım oftalmologiya elminin inkişafı yolunda əldə etdiyi nailiyyətlərə, görmə orqanının peşə patologiyası sahəsində apardığı uğurlu elmi-tədqiqat işlərinə görə 1981-ci ildə SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.Averbax adına mükafatına layiq görülmüşdür.

## Tibb elminə saysız töhfə

Zərifə xanım Əliyeva oftalmologiya sahəsində yeni istiqamətlər üzrə tədqiqatlar aparmış, bununla bağlı görülən müalicə-profilaktika tədbirlərinə silsilə işlər həsr etmişdir. Onun "Herpetik göz xəstəliyi", "Ağır virus konyunktivitləri" əsərləri bu qəbildəndir. Görkəmli alimin qələmə aldığı "Terapevtik oftalmologiya", "Oftalmologiyanın aktual məsələləri", "İridodiaqnostikanın əsasları" kitabları bu gün də oftalmoloqların ən çox müraciət etdikləri, oxuyub faydalandıqları elmi ədəbiyyatlardır. Gənc həkimlərə düzgün yol göstərən, istiqamət verən, onların formalaşmasında mühüm əhəmiyyət kəsb edən bu əsərlər heç vaxt aktuallığını itirməyəcəkdir.

Zərifə xanım Əliyevanın "Azərbaycanın kimya sənayesi müəssisələrində işçilərdə görmə orqanının vəziyyəti" mövzusundakı doktorluq dissertasiyası tibb elminin cəmiyyətlə əlaqəsi baxımından böyük və qətiyyətli addım idi. O, sadəcə, görmə orqanlarındakı xəstəlikləri deyil, istehsalatda baş verən ictimai və tibbi prosesləri vəhdətdə öyrənmiş, Azərbaycanda ilk dəfə olaraq kimya sənayesi müəssisələrində tibbi laboratoriyalar yaratmışdı.

Görkəmli alim uzun illər respublikanın 10-dan artıq iri sənaye müəssisələrində böyük miqyaslı elmi-tədqiqat işləri aparmış, zərərli maddələrin təkcə görmə orqanlarına deyil, eyni zamanda, digər orqanlara təsirini öyrənmişdir. Aparılan səmərəli elmi-tədqiqat işləri, tətbiq edilən düşünülmüş üsullar həm kimya texnologiyası işçilərinin göz xəstəliklərinin qarşısını almış, həm də istehsalat mühitinin zəhərli maddələrdən təmizlənməsinə şərait yaratmışdır.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndər deyirdi: "Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın".

Akademik Zərifə xanım Əliyeva göz xəstəlikləri mütəxəssisi kimi Azərbaycanda bu sahədə elmin əsas yaradıcılarındandır. O, göz xəstəliklərinin müalicəsi problemini elmi məktəb səviyyəsinə çatdırmışdır.

## Sədaqətli həyat yoldaşı, qayğıkeş ana

Deyirlər ki, hər bir kişinin arxasında güclü bir qadın vardır. Bəli, çox yerində deyilmiş fikirdir. Ümummilli Liderimiz Heydər Əliyevin ömür-gün yoldaşı kimi Zərifə xanım Əliyeva Ulu Öndərin Azərbaycanın inkişafı sahəsindəki qətiyyətli mübarizəsinə etibarlı dayaq olmuşdur. Daim yüksək vəzifələrdə çalışan Ulu Öndərin, iki övladının və xəstələrinin qayğıları Zərifə xanımın mənalı ömrünün eyni ahəngli akkordları olmuşdur. Bütün bunlar haqqında Ulu Öndər Heydər Əliyev deyirdi: "Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o, artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm. On il keçsə də, onu bir dəqiqə belə unutmuram və unutmayacağam. Mənim övladlarım da bu əhval-ruhiyyədədirlər. Onlar bu əhval-ruhiyyə ilə tərbiyələniblər, formalaşıblar".

Ulu Öndər Heydər Əliyev və Zərifə xanım Əliyeva haqqında Vaqif Mustafayevin "Əsl məhəbbət haqqında" filminə tamaşa edəndə baxmayaraq ki, orta nəsil bu böyük şəxsiyyətlərin nümunəvi, gözəl, səmimi münasibətlərinin şahidi də olublar, lakin bu film insanın qəlbində dəruni hisslər oyadır. Ümummilli Liderin Zərifə xanımı xatırlamasındakı bütün cümlələr qarşısında onun ömür-gün yoldaşına bəslədiyi müqəddəs məhəbbətə heyran qalırsan. Bəli, əsl məhəbbət budur: illərin dəyişə bilmədiyi məhəbbət...

Ömrünün mənasını xalqına xidmətdə görən Zərifə xanım Əliyeva həm də o cəhətdən xoşbəxt idi ki, xalqımız, dövlətimiz üçün gərəkli olan iki övladın anası idi. Zərifə xanım Azərbaycana onun xilaskarını bəxş etmişdir. 30 illik işğal altında qalan torpaqlarımızın qurtuluşçusunu bəxş etmişdir. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmağı bacaran, müzəffər sərkərdə, sevilən lider olan Ali Baş Komandanımızı bəxş etmişdir.

Prezident İlham Əliyev Zərifə xanımı dərin ehtiramla xatırlayaraq demişdir: "Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur". Cənab İlham Əliyev bu gün Azərbaycanı dünya dövlətləri içərisində sözü və yeri olan bir ölkə kimi tanıdıb. Heydər Əliyev ideyalarını davam etdirməklə Azərbaycanı inkişaf etmiş ölkələrdən birinə çevirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti, Zərifə xanımın sevimli gəlini Mehriban xanım Əliyeva onun ənənələrini davam etdirir. Hər iki ailədən aldığı yüksək dəyərləri öz şəxsiyyətində birləşdirən Mehriban xanım milli-mənəvi sərvətlərimizin qoruyucusudur. Mehriban xanım Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördükləri işlər, xeyirxah əməllər bu gün Azərbaycan qadınının yüksək intellektual səviyyəsini və vətənpərvərliyini, eyni zamanda bu ailənin ənənələrinin davam etdirildiyini təsdiq edir.

Gözlərə işıq, qəlblərə nur bəxş edən Zərifə xanım Əliyeva 1985-ci il aprel ayının 15-də əbədiyyətə qovuşmuşdur. İllər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir, işıqlı və nurlu əməlləri bu gün də yaşayır və xatırlanır. İndi onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə xanım Əliyevanın adını daşıyır. Onun xatirəsinə ucaldılan büst və abidələr görkəmli alimə və əsl İnsana olan ehtiramın və məhəbbətin tükənməz təzahürüdür.

***Mətanət Məmmədova***






# TERRORDA FRANSA İZİ

***Terrora dəstək vermərkdə Fransanın maraqlı olduğu dəfələrlə öz təsdiqini tapıb. Tarixi faktlarla yanaşı, son zamanlar müşahidə edilənlər, daha dəqiq desək, işğalçı ölkənin silahlandırılması, terrorçuların silah-sursatla təmin edilməsi üçün rəsmi Parisin əldən-ayaqdan getməsi Fransanın terroru dəstəklədiyini isbatlayır. Məhz bu səbəbdəndir ki, həmin Avropa ölkəsinin terroru dəstəkləyən ölkə imici artıq formalaşıb və Fransa, eləcə də şəxsən president Emmanuel Makrona qarşı bir-birinin ardınca ciddi ittihamların səsləndirilməsi heç də təsadüfi deyil.***

### ”Krokus Siti Holl”-da törədilən qanlı terror aktının arxasında Makronun olması ilə bağlı Medvedevin haqlı ittihamları

Diqqətə çatdıraq ki, Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev beynəlxalq münasibətlərə baxışı kökündən dəyişə biləcək son bəyanatında Fransa və şəxsən prezident Emmanuel Makrona qarşı ciddi ittihamlar səsləndirib. O, açıq şəkildə ifadə edib ki, azərbaycanlı iş adamlarına məxsus ”Krokus Siti Holl” konsert zalında törədilən qanlı terror aktının arxasında Makron və bir sıra digər Qərb liderləri dayanırlar. ”Onların bir çoxu ortaqlardırlar. Mal-mülk, pul verənlərin, hərəkatı təşkil edənlərin, atəş açmağı öyrədənlərin dairəsi genişlənir. Daha maraqlısı isə terrorçuların digər ortaqları, yaxud beynəlxalq sponsorlardır. Burada, təəssüf ki, vəziyyət belədir və bunlara NATO ölkələrinin yüksək vəzifəli şəxsləri daxildir. Bəli, ən azı Makron özü. Onun ritorikası və hərəkətləri, ən əsası isə ”Bandera rejimi” ilə məxfi əməliyyatlara görə tətbiq etdiyi sanksiyalar baxımından 22 mart terror aktında şərik kimi qiymətləndirilə bilər”, deyə Medvedev Telegram-da yazıb. Təbii ki, Dmitri Medvedevin bu şəkildə qeyd etməsini təsadüfi hesab etmək olmaz. Heç şübhəsiz ki, onun belə bir ittihamı səsləndirməsi üçün əsası da, arqumentləri də yetərincədir. Kənardan müşahidə etdikdə belə bir qənaətə gəlinməsi üçün əsas görünür. Ona görə də belə bir ittiham heç də qeyri-adi səslənmir.

### Fransa prezidenti Rusiyada daxili dini və etnik qarşıdurmaları qızışdırmaqda maraqlı görünür

Ən azından ”Krokus Siti Holl” konsert zalında törədilən qanlı terror aktında şəxsən Emmanuel Makronun nə üçün maraqlı olduğu sualı barədə düşünmək bəzi məqamlara aydınlıq gətirilməsi üçün kifayət edir. Məsələn, Fransa prezidentinin Rusiyada daxili dini və etnik qarşıdurmaları qızışdırmaqda maraqlı olduğu təkzib edilə bilməz. Xüsusən də Rusiya ilə Azərbaycan arasında münasibətləri pozmaq üçün Makron kimi bir ara qızışdıranın belə bir terror aktına əl atması da məntiqidir. Hətta şübhə etmirik ki, o bu terror aktının indi Fransa üçün də faydalı olduğu qənaətindədir. Çünki Makron elə hesab edir ki, Azərbaycanla Rusiya arasındakı münasibətləri pozmaqla öz çirkin niyyətlərini gerçəkləşdirə bilər. Əlaxüsus da, onun hər iki ölkəyə qarşı hansı mövqedə olmasını nəzərə aldıqda görürük ki, Fransa liderinin belə bir terror aktının törədilməsinə can atması tam gözləniləndir. Hər halda Fransa xüsusi xidmət orqanlarının himayəsi altında həyata keçirilən bu cür ”əməliyyatların” tarixi kontekstinin və belə bir əməlin mümkün motivlərinin daha ətraflı araşdırılması bu mürəkkəb mənzərəni daha yaxşı anlamağa, eləcə də Fransanın terror aktında rolunu görməyə imkan verəcək. Bu arada Fransa xüsusi xidmət orqanlarının müxtəlif terror təşkilatları ilə qarşılıqlı əlaqədə zəngin təcrübəyə malik olması barədə məlumatları gözdən keçirmək də yerinə düşər.

### Fransanın terroru dəstəkləyən ölkə imici artıq çoxdan formalaşıb

Yəqin ki, Fransanın Lafarge şirkətinin Suriyadakı fəaliyyəti barədə məlumat heç kim üçün sirr deyil. Şübhəsiz ki, həmin şirkətin fəaliyyətinin məhz Fransanın terror təşkilatları ilə əlaqələrini təsdiqləyən ən diqqətçəkən və qalmaqallı nümunələrdən biri olduğu da hər kəsə bəllidir. Şirkətin birbaşa münaqişə zonasında yerləşən zavodunun vətəndaş müharibəsi dövründə fəaliyyətini davam etdirməsinin təsadüfi olduğunu çətin ki, kimsə düşünsün. Hər halda bunun məqsədli şəkildə olduğu barədə faktlar da doğru qənaətə gəlmək üçün əsas verir. Bələki, beynəlxalq terror təşkilatı kimi tanınan İŞİD ilə maliyyə əməliyyatlarında iştirak doğru və düzgün nəticəyə gəlmək üçün kifayətdir. TRTWorld platformasında yayılan xəbərlərə görə, zavod Türkiyə kəşfiyyatının keçirdiyi əməliyyat nəticəsində məhv edilib və hər halda onun məhv edilməsi də təsadüfi sayıla bilməz. Çünki onun məhv edilməsi əməliyyatı məhz tikinti materiallarının alqı-satqısı yolu ilə maliyyə dəstəyi göstərməklə İŞİD-in ehtiyaclarına mahiyyətcə xidmət edən zavodun fəaliyyətinin hərtərəfli təhlilindən sonra həyata keçirilib. Bir sözlə, Fransa şirkətinin məhz terror təşkilatını maliyyələşdirməsi açıq şəkildə ortaya çıxıb və bunu təsdiq edən faktlar da yetərincədir. Deməli, Fransa dövlətinin terrorizmin dəstəklənməsində maraqlı olan ölkə kimi tanınması əbəs yerə deyil və ittihamların səsləndirilməsi üçün də yetərincə əsas ortaya çıxıb. Ümumiyyətlə, bu Avropa ölkənin terroru dəstəkləyən ölkə imici artıq çoxdan formalaşıb.

### Fransanın erməni terrorizminə göstərdiyi dəstəklə əlaqədar arqumentlər

Qeyd etdiyimiz kimi, Fransa hal-hazırda terror törətmək, işğalçılıq etmək niyyətində olan revanşist erməniləri dəstəkləyir və hətta onları silah-sursatla, hərbi texnika ilə təmin edir. Hətta rəsmi Paris, daha dəqiq desək həmin o Avropa ölkəsinin rəsmiləri açıq şəkildə bəyan edirlər ki, Fransa işğalçı ölkə olan Ermənistana bundan sonra da silah tədarükü etmək niyyətindədir. Yəni, fransızların rəsmi nümayəndələri belə etiraf edirlər ki, ölkələri terrorçuların silahla təmin edilməsinə indiyə qədər çalışdığı kimi, bundan sonra da çalışacaq. Bu fakt özü təsdiq etmirmi ki, Fransa terroru dəstəkləyən ölkədir? Əlbəttə ki, təsdiq edir. Özü də həmin ölkənin terroru dəstəklədiyini isbatlayan faktlar bununla birmir və tarixə nəzər saldıqda görürük ki, yetərincədir. Xüsusən də erməni terrorçulara göstərilən dəstəklə əlaqədar arqumentlər var. Məsələn, Fransanın, xüsusilə ASALA kimi tanınan erməni terror qruplarına dəstək verməsinin uzun tarixi var və bu barədə məlumatlar kifayət qədərdir. Beləki, 1975-ci ildə yaradılan bu qrup beynəlxalq diqqəti qondarma ”erməni məsələsi”nə cəlb etmək üçün dünyanın müxtəlif yerlərində, xüsusən də Avropadan Yaxın Şərqə qədər həyata keçirdiyi çoxsaylı terror aktları ilə tanınır. ASALA adlı həmin təşkilatın beynəlxalq diqqəti cəlb edən qətlləri, girov götürmələri və digər zorakılıq aktları həyata keçirmələri ilə bağlı məlumatlar az deyil. Eyni zamanda, həmin təşkilata Fransanın dəstəyi barədə də məlumatlar var. Fransanın həmin o terror təşkilatına dəstəyi müxtəlif maddi-texniki və maliyyə yardımı formasında olub. Elə bu dəstək sayəsində də ASALA uzun müddət mövcud ola və terrorçuluq fəaliyyətini davam etdirə bilib.

### Terrorun dəstəklənməsi beynəlxalq münasibətlərin ümumi mənzərəsinə mənfi təsir göstərir, ölkələr arasında gərginliyin artmasına səbəb olur

Fransanın Afrikada yürütdüyü siyasət haqqında artıq kifayət qədər məlumatlar ictimaiyyətə təqdim olunub və bu barədə dünya ictimaiyyəti yetərincə məlumatlıdır. Həmin məlumatlar Fransanın mahiyyəti barədə təhlil etmək, həmin ölkənin terrora maraqlı olduğunu təsdiq etmək üçün bəs edir. Çünki Fransanın qarşılıqlı əlaqələrinin dərindən təhlili həmin ölkənin regiondakı siyasətində həm tarix boyunca, həm də müasir dövrdə terror meyllərini açıq aşkar ifşa etmiş olur.

Sözsü ki, sadalanan faktlar Fransanın terror fəaliyyətini dəstəklənməsi və milli maraqlara nail olmaq üçün terror strukturlarından istifadə etməsini isbatlayır. BMT Təhlükəsizlik Şurasının daimi üzvü statusuna malik olmasına baxmayaraq, Fransanın bir sıra regionlarda fəaliyyəti beynəlxalq normalara və beynəlxalq aləmdə məsuliyyətli davranış prinsiplərinə əməl olunması ilə bağlı ciddi suallar doğurur. Terror qruplarını dəstəkləmək, bütöv regionların sabitliyinin pozulmasında iştirak etmək, hətta birbaşa və ya dolayı yolla zorakılıq aktlarına sponsorluq etmək Fransanın Cenevrə və BMT-nin terrorla mübarizə konvensiyaları kimi beynəlxalq müqavilə və konvensiyalara sadiqliyini şübhə altına alır. Eyni zamdanda onu da diqqətə çatdıraq ki, bu cür siyasət, yəni terrorun dəstəklənməsi beynəlxalq münasibətlərin ümumi mənzərəsinə mənfi təsir göstərir, ölkələr arasında gərginliyin artmasına səbəb olur. Ona görə də bu cür fəaliyyət, bu şəkildə aparılan siyasət, terrorun dəstəklənməsi beynəlxalq müstəvidə, qlobal səviyyədə pislənilməli, qarşısını alınması üçün effektiv mexanizmlər hazırlanmalıdır.

### Terrorizmə dəstək beynəlxalq forumlarda açıq müzakirə və konstruktiv tənqid tələb edir

Sözsüz ki, terrorun dəstəklənməsinin bir daha təkrarlanmaması üçün addımlar atılmalı, tədbirlər görülməlidir. Etiraf edək ki, bunun üçün ən effektiv üsul, ən təsirli tədbir məhz beynəlxalq hüquq-mühafizə mexanizmlərinin tətbiq edilməsi hesab olunur. Hətta belə hesab olunur ki, hüquq-mühafizə mexanizmləri təsiq baxımından daha mühüm əhəmiyyət kəsb edir. Qlobal siyasətin və beynəlxalq münasibətlərin qanun, ədalət və bütün xalqların suverenliyinə hörmət prinsiplərinə əsaslanmasını təmin etmək üçün Fransanın terrorizmə dəstək rolu ilə bağlı məsələlər beynəlxalq forumlarda açıq müzakirə və konstruktiv tənqid tələb edir. Çünki terrorun dəstəklənməsi tarix boyu qlobal miqyaslı fəlakətlərə səbəb olub və bundan sonra da məhz elə qlobal səviyyədə, beynəlxalq miqyasda fəlakətlər vəd edir.

***İnam Hacıyev***

## Naxçıvan Muxtar Respublikası-100

# Naxçıvanı bir də fotolarda gördük...

Beşminillik tarixin ərmağanı olan qədim Naxçıvan 100 il öncə muxtariyyət statusu alıb. Artıq bir əsrdir ki, Naxçıvan muxtar respublika kimi yaşayır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il dekabrın 30-da ”Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında” imzaladığı Sərəncamda bu qədim diyarın parlaq mənzərəsi öz əksini tapır: Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Sərəncama əsasən silsilə tədbirlər keçirilir. Naxçıvanda dərc olunan ”Şərq qapısı” qəzeti isə bu yubileyə daha fərqli bir şəkildə hazırlaşıb. Qəzetin fotoqraf əməkdaşlarının Naxçıvanın tarixi-mədəni abidələri, dünəni-bu günü, təbiəti, zəhmət adamları, mətbəxi ilə bağlı çəkidikləri fotolar kompakt şəkildə sərgilənərək Naxçıvanı qədimlik və gözəlliyin tərənnümü kimi ona bələd olanlara bir daha xatırladır, heç yolu düşməyənlərin isə gözləri önünə gətirir. 62 bir-birindən gözəl fotonu özündə tərənnüm edən ”Naxçıvan fotolarda” adlı sərgi artıq bir neçə dəfədir ki, ölkəmizdə və qonşu Türkiyədə açılıb, tamaşaçıların heyranlığı ilə qarşılanıb.








Yubileylə əlaqədar Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Beynəlxalq Muğam Mərkəzi və ”Şərq qapısı” qəzetinin təşkilatçılığı, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə ”Naxçıvan fotolarda” adlı fotosərgi aprelin 15-də Bakıda-Beynəlxalq Muğam Mərkəzində də açıldı. Naxçıvan bir-brindən gözəl fotolarla birgünlük Bakının qonağı oldu. Ölkənin ictimaiyyət və media nümayəndələrinin heyranlıqla qarşıladığı fotoların hər biri sanki dil açıb özü haqqında məlumat vermək iqtidarında idi. Çünki onlar çox canlı çəkilmiş və nəfis şəkildə təqdim edilmişdi.

Tədbirdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli dövlət başçısı cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi ilə bağlı məlum sərəncamina əsasən əlamətdar tədbirlərin keçirildiyini diqqətə çatdırdı. Səlahiyyətli nümayəndə yubiley tədbirlərinin Naxçıvan şəhəri ilə yanaşı, başqa şəhərlər və ölkələrdə də geniş şəkildə qeyd olunduğunu, ”Naxçıvan fotolarda” sərgisinin Türkiyə Cümhuriyyətinin İğdır şəhərində də açıldığını vurğuladı, il ərzində muxtar respublikanın yubileyi ilə bağlı bu kimi tədbirlərin davam edəcəyini bildirdi.

Naxçıvanın hazırda yeni inkişaf mərhələsinə qədəm qoyduğunu qeyd edən Fuad Nəcəfli bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli ”Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamı bu mərhələnin əsas stimuludur. Qeyd olundu ki, Naxçıvanın bütün istiqamətlərdə kompleks inkişafını özündə əks etdirən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi Naxçıvanın yaxın gələcəkdə tamamilə yenilənməsi, iqtisadi gücünün artması ilə nəticələnəcək.



Səlahiyyətli nümayəndə fotosərginin Naxçıvanın turizm potensialının üzə çıxarılması, daha geniş arenada tanıdılması baxımından da xüsusi əhəmiyyət kəsb etdiyini vurğuladı.

Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, Milli Məclisin deputatı İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı tarixi Sərəncamı Naxçıvan Muxtar Respublikasına dövlət səviyyəsində göstərilən diqqətin, qayğının təzahürü kimi qiymətləndirdi. Ulu Öndərin Naxçıvanın taleyində müstəsna rolunu qeyd edən akademik, bu gün Naxçıvanın öz 100 illiyini yeni inkişaf mərhələsi ilə qarşıladığını bildirdi: Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub.



”Şərq qapısı” qəzetinin baş redaktoru Sara Əzimova qəzetin yaranma tarixindən və keçdiyi şərəfli yoldan ətraflı danışdı. Bildirdi ki, ”Naxçıvan fotolarda” sərgisi muxtar respublikanın 100 illik yubileyinə töhfədir.

***

Tədbirin rəsmi hissəsindən sonra başlanan bədii hissədə Beynəlxalq Muğam Mərkəzinin solistləri xanəndələr Arzu Əliyeva və Sərxan Bünyadzadənin ifasında səslənən Naxçıvanın hüsnünü tərənnüm edən mahnılarla Naxçıvana bir yolçuluq başlandı sanki. Muxtariyyətinin 100-cü, müstəqilliyinin 33-cü, blokadalı həyatının 34-cu və blokadalı-inkişaflı, tərəqqili dövrünün 31-ci ilini yaşayan bu diyar küçə-küçə, dalan-dalan keçdi gözlər önündən. Nuh Peyğəmbərin məzarı, Xan sarayı, Naxçıvanqala, Əlincəqala, Möminə xatın, Gülüstan, Qarabağlar türbələri, Xanəgahı, Buzxanaları, qədim hamamları ilə tarixin özü olan Naxçıvan. Bütün bunların fonunda müasir universitetləri, kitabxanaları, kinoteatrları, yaşayış binaları, park, xiyabanları, müasir tikililəri ilə qədimliklə müasirliyin çiyin-çiyinə mənzərəsini seyr edə biləcəyimiz Naxçıvan.

İslam mədəniyyətinin beşiyi Naxçıvan. Qədim İmamzadə, məscid və pirləri bu mədəniyyətin özü olan Naxçıvan. Ulu Yaradanın möcüzə əsəri olan ”Əshabi-Kəhf”lə ümidlərin, pənahların, niyyətlərin, arzuların, gerçəklərin ünvanı olan Naxçıvan!

Dəniz səviyyəsindən yüz metrlərlə yüksəklərə sığınan, yaşılın bütün tonlarını dağına-çəməninə səpən, doyumsuz gül-çiçəyi, buz bulaqları, heyrətamiz havası ilə qonaqlarını salamlayan Batabatın, Göygölün anası Naxçıvan! Dörd bir tərəfini, sanki igidlərinin qızını-gəlinini qoruyurmuş kimi saran uca dağlarının zirvəsi buludlarla öpüşən diyar Naxçıvan. ”Şişpapaqlı” bu dağların uca zirvəsindən daşların bağrını yara-yara süzülən, torpağın altından qaynayıb çağlayan 230-dək buz bulaqları, su mənbələri ilə süfrələrin yaraşığı, şəfa ocaqları, həm də təbii və mineral sular muzeyi Naxçıvan. ”Badamlı”sı, ”Sirab”ı, ”Vayxır”ı, ”Darıdağ”ı, ”Nəhəcir”i, ”Gülüstan”ı ilə dünyanı gəzən bəxtəvər Naxçıvan! Dünyanın neçə-neçə ölkəsindən yuxarı tənəffüs yolları, ağciyər xəstəlikləri və allergiyalardan əziyyət çəkib Duzdağ Fizioterapiya Mərkəzinə - bu duz qalereyasına gələnlərə bir udum nəfəslə şəfa Naxçıvan!

Bu yurdun zəhmətsevər, torpağına, elinə bağlı insanlarının həmdəmi Naxçıvan. Köksündə əkinçiyə-biçinçiyə yer verən, taxıl zəmisi, ətirli təndir çörəyi, göz baxdıqca uzanan, insanların bir qoyub min götürdüyü bərəkətli torpaq Naxçıvan!

Dağlarının, düzlərinin min adlı, min bir dadlı nemətləri ilə hər bir sakininə ruzi payı ayıran ata ocağı Naxçıvan. Ulu Tanrının insanlar üçün ruzi mənbəyi yaratdığı arıların vurulduğu, aşiq olduğu məkandır Naxçıvan! Yaylaqlarında, obalarında bol yaşıl ot-avarı ilə qoyun-quzusunun bol südünü yağa, pendirə, qatığa, şora çevirən kənd adamlarının ehtiyacı Naxçıvan! Təbiətinin rəngarəng gül-çiçəyi, bitkiləri ilə boyadılan əlçim-əlçim yunun hanalarda sıralanan ipliyi, xalçalara vurulan min bir ilmə, naxış, hər biri tarixin bir səhifəsi olan qədim xalçalarına həkk olunan milli ornament, buta Naxçıvan! Qonaqpərvər, xoşxasiyyət insanların yurdu diyar! Milli mətbəxinin məşhur ət qovurması, əriştəsi, qayğanağı, qaysavası, kətəsi, lavaşı, çaşırı, baldırğanı ilə damaq dadı Naxçıvan!

Sakinlərinin məftunu olduğu kimi, qonaqlarının da xoş təəssüratlarının ünvanı Naxçıvan. İstirahət, gəzmək üçün hər il seçim edilən, hər kəsin heç də hər yerdə rast gəlmədiyi, 5000 il yaşlı, keçmişinə sadiq, bu günü heyran edən, qonağını yola salarkən ”bir də mənə dön”, - deyən, Naxçıvan! Bir sözlə, hər şeyi ilə, bütövlükdə, bir hüzur Naxçıvan!..

Fotolar bunları ”söyləyirdi”. Gerçəklik isə bundan qat-qat gözəldir...

***

Və bir daha fotoları seyr edərkən gəlinən qənaət: bugünkü Naxçıvan Ümummilli Liderimizin başladığı siyasətin dövlətimizin uğurla davam etdirməsinin təntənəsidir. Beşminillik tarixə malik olan qədim yurd yüzillik muxtariyyəti ilə bütövlükdə varlığını qoruyan, məğrurluğunu nümayiş etdirən qədim Azərbaycan torpağıdır. Bir qərinə blokada şəraitində yaşaması da bu məğrurluğa əsla xələl gətirə bilmədi.

Bayramın mübarək, Naxçıvan! Zəfərli Azərbaycanın qarşısında açılan yeni dövr sənə gələn yolların açılmasını, Qarabağ və Şərqi Zəngəzur kimi anan Azərbaycana qovuşmağını tezliklə reallaşdıracaq.

***Mətanət Məmmədova***



# Demoqrafik inkişafın göstəriciləri

## *Ölkə əhalisinin sayı 10 milyon 187 min 539 nəfərə çatıb*

Azərbaycanda son illər baş vermiş həm siyasi, həm də sosial-iqtisadi dəyişikliklər demoqrafik inkişafa ciddi təsirini göstərib. Demoqrafiya sahəsindəki siyasət dövlətimizin sosial siyasətinin mühüm və başlıca tərkib hissəsi olmaqla, onun əsasını təşkil edir. Demoqrafik proseslər cəmiyyətin həyatının bir çox tərəfləri ilə qarşılıqlı surətdə bağlı olduğundan bu əlaqə sosial-iqtisadi hadisələrin demoqrafik proseslərə və öz növbəsində demoqrafik proseslərin də sosial-iqtisadi hadisələrə təsirinin təzahürüdür. Müasir dövrümüzdə insan inkişafının demoqrafik aspektləri bir sıra amilləri özündə cəmləşdirir. Belə ki, ölkəmizdə ölüm səviyyəsinin azaldılması, əhalinin sağlamlığının və həyatının yaxşılaşdırılması hesabına uzunömürlülük, nikah və boşanma proseslərinin bütünlükdə cəmiyyətin və ayrılıqda hər bir ailənin mənafeyinə uyğun tərzdə nizamlanması, ictimai tərəqqinin həm yaxın, həm də uzaq gələcəyə perspektivləri nəzərə alınmaqla miqrasiya proseslərinin tənzimlənməsi və digər amillər ölkəmizdə demoqrafiyanın inkişafına təsirsiz ötüşməyib.

Statistik rəqəmlərə istinadən ölkə əhalisinin sayı ilin əvvəlindən 6 min 769 və ya 0,1 faiz artaraq 2024-cü il mart ayının 1-i vəziyyətinə 10 milyon 187 min 539 nəfərə çatıb. Əhalinin 54,5 faizini şəhər, 45,5 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir. Yanvar-fevral aylarında Azərbaycanda 17 min 81 körpə doğulub. Əhalinin hər 1000 nəfərinə doğulanların sayı 2023-ci ilin müvafiq dövrü ilə müqayisədə azalaraq 11,7-dən 10,2-yə düşüb. Doğulanlar arasında oğlan uşaqlarının xüsusi çəkisi 52,5, qız uşaqlarının xüsusi çəkisi isə 47,5 faiz təşkil edib. Körpələrin 594-ü əkiz, 36-sı isə üçəm doğulanlardır.İlin ilk iki ayında ölkədə 10 min 395 ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə həmin göstərici azalaraq 6,8-dən 6,2-yə enib.

### DEMOQRAFİK İNKİŞAFIN ŞƏRTLƏNDİRİCİ AMİLLƏRİ

Təbii ki, demoqrafiya sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi ekoloji cəhətdən təhlükəsiz və sabit iqtisadi inkişafın təmin edilməsi də qeyd olunan amillər sırasındadır. Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu islahatlar kursu ölkəmizdə dayanıqlı inkişafının təmin olunmasına imkan yaratmaqla bərabər və demoqrafiya sahəsində müsbət meyilləri də stimullaşdırıb. Bunun real təzahürü ölkə əhalisinin sabit artım tempinin davam etməsində aydın şəkildə özünü göstərir. Əhalisinin sayı hər il sabit şəkildə artması ölkəmizdə dayanıqlı sosial-iqtisadi tərəqqi, sosial siyasət davamlı xarakter almaqla demoqrafik inkişafa təkan verir.Dünyanın bir çox ölkəsində əhali sayında azalma müşahidə edildiyi halda, Azərbaycanda əhalinin artımı davam edir. Prezident Cənab İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyası nəticəsində bütün sahələrdə mühüm tarixi nailiyyətlərə imza atan, iqtisadi qüdrətini artıran, sabitlik, təhlükəsizlik, əmin-amanlıq məkanı olan ölkəmizdə sosial rifah səviyyəsinin də davamlı olaraq yaxşılaşması özünü göstərir. Bu amillər isə demoqrafik inkişaf üçün vacib şərtlər sırasındadır.

Azərbaycanda hər il doğulanların sayı artır, misal üçün 2018-ci ildə ölkədə 139 min doğulmuş körpə qeydə alınıb. Ölkəmizdə doğulanların sayı ölənlərin sayını 2-2,5 dəfə üstələyir. Müsbət miqrasiya saldosu davam edir. 2018-ci ildə daimi yaşamaq üçün ölkəmizə gələnlərin sayı gedənlərin sayından iki dəfədən çox olub. 2003-cü ildə ölkədə doğulanda gözlənilən ömür uzunluğu 72,3 yaş (o cümlədən kişilər arasında 69,5 yaş, qadınlar arasında 75,1 yaş) idisə, 2018-ci ildə bu göstərici 75,6 yaşa (o cümlədən kişilər arasında 73,1 yaşa və qadınlar arasında 77,8 yaşa) çatıb. Əhalinin artımı qarşısında genişmiqyaslı tədbirlər görülür, yeni uşaq bağçaları və məktəblər, müalicə müəssisələri, idman kompleksləri istifadəyə verilir. Dövlət başçısı çıxışlarının birində bildirdiyi kimi,: "Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər".

Dövlət başçısının 2018-ci il 30 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" mövcud demoqrafik meyillərə və inkişaf perspektivlərinə, ölkənin müəyyən olunmuş iqtisadi prioritetlərinə əsaslanmaqla səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş uzunmüddətli dövlət məşğulluq siyasətini müəyyən edir.

### SOSİAL MÜDAFİƏNİN GÜCLƏNDİRİLMƏSİNƏ HESABLANMIŞ SİYASƏT

Bu gün ölkəmizdə iqtisadi sabitləşmənin nəticəsi olaraq, sosial sahədə ciddi dəyişikliklərə verir. Əlbəttə ki, iqtisadi sferada islahatlar prosesi dərinləşdikcə, dövlət vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı üzərinə yeni-yeni öhdəliklər götürür, sosialyönümlü siyasətin miqyasını daha da genişləndirir. Son 20 ildə Azərbaycan Respublikasında əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur.



### "BİZ HƏR İL 10 MİNLƏRLƏ YENİ İŞ YERİ YARATMALIYIQ"

Ötən 20 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Dövlətimizin başçısı "Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı, - bəlkə də çoxlarının yadında deyil, - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz", - deyə bildirmişdir. Ölkəmizdə son 20 il ərzində bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. "Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun" - deyən Prezident bildirib ki, müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün: "Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir".

### ÖTƏN 20 İLDƏ MİNİMUM PENSİYA 14 DƏFƏ ARTIB

Qeyd edək ki, minimum əməkhaqqı 38 dəfə artırılaraq 345 manata, orta aylıq əməkhaqqı 12 dəfə artaraq 925,3 manata çatıb. Sosial müdafiə sisteminin mühüm komponenti olan pensiya təminatı yoxsulluğun azaldılmasında əhəmiyyətli rola malikdir. 2006-cı ilin əvvəlindən Azərbaycanda qabaqcıl dünya təcrübəsinə uyğun müasir sığorta-pensiya modelinə keçidin təmin edilməsi pensiya təminatında müsbət nəticələrin əldə edilməsi ilə nəticələnib. Rəqəmlərin dili ilə desək ötən 20 ildə minimum pensiya 14 dəfə artıb.

Bu gün Azərbaycan dünyanın ən müasir və inkişaf etmiş ölkələri sırasındadır. Hətta Azərbaycan siyasi və iqtisadi çəkisinə görə dünyanın ən nəhəng ölkələri ilə müqayisə olunacaq dərəcədə işlər görüb. Təbii ki, bu işlərin də müəllifi, həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevdir.

Təbii ki, bu və ya digər sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir. Ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində göründüyü kimi, əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Cənab İlham Əliyevin çıxışlarının birində vurğuladığı kimi: "Azərbaycan çox güclü sosial siyasət aparır. Bu siyasət özünü müxtəlif sahələrdə büruzə verir". Bütün bu qeyd olunanlar bir daha təsdiq edir ki, Azərbaycan dövlətinin siyasəti sosialyönümlüdür və bunun da mərkəzində Azərbaycan vətəndaşı dayanır.

***Zümrüd BAYRAMOVA***

# Regionların sosial-iqtisadi inkişafı: yeni keyfiyyət, yeni mərhələ

**İqtisadi tərəqqi güclü sosial siyasət ilə tamamlanır. Azərbaycan son 20 ildə uğurlu islahatlar nəticəsində sosial dövlət kimi beynəlxalq nüfuzunu möhkəmləndirib. Vətəndaş amilinin dövlət siyasətinin əsasında dayanması beynəlxalq aləmdə yüksək dəyərləndirilir. İqtisadiyyatın düzgün əsaslar üzərində qurulması Azərbaycanın dayanıqlı inkişafının əsasıdır.**

Regionların inkişafı sahəsində uğurla həyata keçirilən Dövlət proqramlarında, habelə bölgələrin sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı Prezident sərəncamlarında nəzərdə tutulan vəzifələrin uğurlu icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafını təmin edib. Bundan əlavə, həyata keçirilən tədbirlər regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin sosial-iqtisadi inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları böyük əhəmiyyət kəsb edir. 2004-cü ildən uğurla icra olunan bu proqramlar şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişib, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açıb. Təhsil, səhiyyə, mədəniyyət və digər sosial layihələrin reallaşdırılmasında mühüm rolu olan Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən layihələrin miqyası minlərlə insanın sosial şəraitinin yaxşılaşmasına yeni imkan yaradıb.














Respublikamızda sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasında regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının qəbul olunması və həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır. Bu baxımdan "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nı xüsusilə qeyd etmək lazımdır. Bu proqramın uğurlu icrası nəticəsində hazırda respublikamızın müxtəlif rayonlarında geniş abadlıq-quruculuq işləri sürətlə davam etdirilib, eləcə də irimiqyaslı sosial və iqtisadi infrastruktur layihələri həyata keçirilib. Hazırda bölgələrdə yeni məktəblər, xəstəxanalar, DOST, "ASAN xidmət" mərkəzləri və.s inşa olunur, yeni yollar çəkilir.

Azərbaycan Prezidenti hər il təqribən 15 rayona (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) səfərlər həyata keçirir, açılış və təməlqoyma mərasimlərində iştirak edir, tikinti aparılan və ya aparılacaq obyektlərdə işlər və ya onların planları ilə tanış olur.

Ümumiyyətlə, dövlətimizin başçısının bölgələrə səfərlərinin müntəzəm xarakter daşıdığını aşağıdakı rəqəmlərdən də görmək olar. Bu səfərlər Naxçıvan, Gəncə-Daşkəsən, Qazax-Tovuz, Quba-Xaçmaz, Lənkəran-Astara, Mərkəzi Aran, Mil-Muğan, Şəki-Zaqatala və digər istiqamətlər olmaqla, ölkənin bütün regionlarını əhatə edir. Statistikaya nəzər salsaq görərik ki, 2021-ci ildə 17, 2022-ci ildə 14, 2023-cü ildə 11, bu ilin ötən dövründə isə 5 rayona, ümumilikdə, 47 səfər həyata keçirilib. Onu da qeyd edək ki, Prezident İlham Əliyev işğaldan azad olunan ərazilər də daxil olmaqla, 2021-ci ildən indiyədək bölgələrə 140-a yaxın səfər edib. Bu, Azərbaycan Prezidentinin bölgələrin inkişafına diqqət və qayğısının təzahürü kimi xarakterizə olunur.

Ümumilikdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı layihələrin reallaşdırılması ölkə başısının daim diqqət mərkəzindədir. Son illər bu istiqamətdə həyata keçirilən tədbirlər sayəsində şəhər, qəsəbə və kəndlərimizin siması köklü şəkildə dəyişmiş, əhaliyə göstərilən dövlət xidmətinin keyfiyyəti daha da yaxşılaşmışdır.

Təbii ki, ölkə başçısının regionlara davamlı səfərləri xüsusi məqamlarla yadda qalır. Dövlətimizin başçısı bölgələrə hər səfərində yeni-yeni müəssisələrin və sosial-iqtisadi infrastruktur layihələrinin açılışında iştirak edir.

Biz bunu son olaraq bu il Prezident İlham Əliyevin Lənkəran, Neftçala, Hacıqabul, Gəncə və Qəbələyə səfəri zamanı da şahidi olduq. Yanvarın 16-da Prezident İlham Əliyevin Lənkəran rayonuna səfəri çərçivəsində burada yeni inşa edilmiş müasir penitensiar kompleksində yaradılan şəraitlə, həmçinin "Laran" Məhdud Məsuliyyətli Cəmiyyətinin qənnadı məhsullarının istehsalı müəssisəsinin fəaliyyəti ilə, "Lenk Frut" Məhdud Məsuliyyətli Cəmiyyətinin Lənkəran rayonunun Separadi kəndində yeni salınmış sitrus bağında yaradılan şəraitlə tanış olması bunun bariz nümunəsidir.

Prezident İlham Əliyevin, həmçinin yanvarın 16-da Neftçala rayonuna səfəri çərçivəsində Neftçala şəhərinin içməli su təchizatı sistemlərinin istismara verilməsi mərasimində iştirak etməsi bölgələrdə əhalinin gündəlik həyat və məişət şəraitinin yaxşılaşdırılması istiqamətində genişmiqyaslı sosial proqramların uğurla reallaşdırılmasının əyani sübutudur. Dövlət başçısı aprelin 9-da Hacıqabulda 8 məntəqəni birləşdirən avtomobil yolunun açılışında iştirak etdi, kənd təsərrüfatı təyinatlı torpaq sahəsinə suyun çatdırılması üzrə suvarma qurğuları kompleksi ilə tanış oldu. Sonra Gəncədə Ekoloji Parkın tikintisi ilə tanışlıq oldu, İdman Sarayının açılışını etdi və şəhər stadionunun təməlini qoydu. Qəbələdə isə elektrik yarımstansiyası, Rayon Mərkəzi Xəstəxanası, avtomobil yolu və yeni məktəb binası istifadəyə verildi. Göründüyü kimi, bütün obyektlər sosial və iqtisadi təyinatlı olmaqla, həmin rayonların sakinlərinin sağlam, firavan yaşayışına xidmət edəcək.

***Anar Miriyev***

# "Böyük Qayıdış"ın reallaşması strateji məqsədlərlə bağlıdır

**"İşğaldan azad olunmuş bölgələrdə "Böyük Qayıdış"ın reallaşması strateji məqsədlərlə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli deyib.O bildirib ki, bu, 100-300 minlik şəxsin geri qaytarılmasını əhatə etmir: "Ən azından bölgələrin məskunlaşdırılması sayını 1 milyon nəfərə çıxarmaq lazımdır. Bu, geniş, əhatəli dövlət proqramına əsaslandığından siyasətüstü məsələ kimi ölçülür. Bir az da mənəvi və ideoloji proqramın tərkib hissəsidir. Bu mənada ərazilərin gələcəyinin şəkillənməsi üzərindən dövlət bir neçə vacib istiqamət üzrə plan həyata keçirir.**



Əlbəttə ki, ilk növbədə bölgənin minalardan təmizlənməsinə böyük ehtiyac var. Bu proses ardıcıl şəkildə də davam etdirilir. Amma minalarla çirkləndirilmiş dünyanın üç əsas sahəsindən biri Qarabağ bölgəsi olduğundan dərhal orada məskunlaşdırılmanın aparılması insanları təhlükə altında qoyur. Buna görə mərhələli şəkildə "Böyük Qayıdış"ın öncə minalarla zəngin olmayan, daha təhlükəsiz hissələrinin məskunlaşdırılması həyata keçirilir.Artıq şəhər mərkəzləri, xüsusilə də, Xankəndi, Şuşa, Ağdərə, Laçında yaşayış var. Dövlət qısa müddət ərzində qayıdışın müəyyən hissəsini təşkil edə bildi. Amma qarşıda Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcərin yenidən qurulmasının şahidi olacağıq. Dövlət buralarda mütləq yeni baxışlar ortaya qoymalıdır. Burada da iki vacib istiqamət izlənilir. Birinci, "Smart Qarabağ"ın qurulması üzərində qiymətləndirilməlidir ki, yeni standartlara uyğun həyat şəraiti təmin olunsun. İT dövləti yaratmaq ideyası üzərindən böyük yüklər ortaya qoymuş olsun. "Böyük Qayıdış" o bölgədə özü ilə potensial olaraq təhsili, mədəniyyəti yenidən qurmağa səsləyir və bunun əsasında başlamalıdır. Ona görə biz köç prosesi haqqında ilk olaraq həm də onu deməliyik ki, 2030-cu ilə qədər minimum yarım milyon vətəndaşı bölgəyə qaytarmalıyıq. Buna həm də məcburuq. İndiki vəziyyətdə isə Zəngilanın Ağalı kəndindəki ilk köçdən etibarən yeni dalğa yaşanır. Məncə, elə gün olmur ki, Bakıdakı qaçqın şəhərciklərindən Qarabağa doğru yük karvanı getməsin. Onlar yeni həyat, ocaq qurmağa gedirlər. Azərbaycanın sərhədini güclü şəkildə təmin etməyə doğru gedirlər".



***Söylü Ağazadə***




# "Parisin diqtəsi ilə Ermənistanın təxribat törətməsi təəccüblü görünməməlidir"

"Son vaxtlar Ermənistan Azərbaycanla şərti dövlət sərhədində hərbi təxribatlarını artırır. Təkcə aprelin 5-də Azərbaycan Ordusunun müxtəlif istiqamətlərdə yerləşən bölmələri, ümumilikdə, 30 dəfə atəşə tutulmuşdu. Sonrakı günlərdə də erməni tərəfi təxribatlarını davam etdirib. Nəzərə alaq ki, erməni tərəfinin bu hərbi təxribatları aprelin 5-də Brüsseldə ABŞ-Ermənistan-Avropa İttifaqının üçtərəfli görüşünün keçirilməsi ərəfəsində və görüşdən sonra baş verib. Əlbəttə ki, bu, təsadüfi deyil, Brüssel görüşünün "nəticəsidir". Şübhəsiz, burada Fransanın "rolu" istisna deyil. Bu fakt üçlü görüşün Cənubi Qafqazda gərginliyin yaradılmasına səbəb olması ilə bağlı Azərbaycanın narahatlığı öz təsdiqini tapır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.



Deputat bildirib ki, Azərbaycan regionda sülhün təmin olunması istiqamətində təşəbbüslər göstərsə də, erməni tərəfi bu davranışları ilə sülhə maraqlı olmadığını nümayiş etdirir: "Əslində, belə təxribatların törədilməsi gözlənilən idi. Çünki Fransa Avropa İttifaqında əsas söz sahiblərindən biridir və Parisin diqtəsi ilə Ermənistanın təxribatlara əl atması təəccüblü görünməməlidir. Xatırladaq ki, hələ sözügedən görüşdən bir neçə gün öncədən Ermənistan şərti sərhədə ağır texnika və canlı qüvvə toplamağa başlamışdı. Lakin onlar heç kimə güvənməməlidir. Ermənistan 2020-ci ildən etibarən baş verən hadisələri, təxribatlar törətdikdən sonra başına gələnləri unutmamalıdır. Yəni, həmin təcrübələr qarşı tərəf üçün dərs olmalıdır".

Fransanın Ermənistanı silahlandırdığını xatırladan Sevinc Fətəliyeva qeyd edib ki, bu fakt rəsmi Parisin Cənubi Qafqazda vəziyyəti gərginləşdirmək cəhdidir: "Məqsəd bölgədə yeni müharibəni alovlandırmaqdır. Bununla da, Fransa Ermənistana dəstək bəhanəsi ilə regiona daxil olmağa çalışır. Ona görə də, rəsmi Paris bəzi beynəlxalq aktorları da prosesə cəlb etməyə cəhd göstərir".

"Azərbaycan tezliklə Ermənistanla sülh sazişinin imzalanmasının tərəfdarıdır. Lakin Ermənistan regionda vəziyyəti gərginləşdirməyə çalışmaqla münasibətlərin normallaşdırılması təşəbbüslərinə qarşı çıxır. Amma belə təxribatlar rəsmi İrəvanın özü üçün problemlər yaradacaq. Ermənistan müharibədə məğlub olub, ona görə də mövcud reallıqlarla barışmalı, razılaşmalara, o cümlədən beynəlxalq hüquq normalarına və götürdüyü öhdəliklərə əməl etməlidir. Ona görə də, rəsmi İrəvan Qərbdəki havadarlarına, xüsusilə Fransaya güvənməməlidir",-deyə deputat vurğulayıb.

***Ləman Sərraf***

## Məişət zorakılığına görə cəzalar sərtləşdirilib

**Məişət zorakılığının qarşısının alınması haqqında qanunvericiliyin pozulmasına görə cəzalar sərtləşdirilir, inzibati həbs tətbiq ediləcək. SİA xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikdə əksini tapıb.**

Dəyişikliyə əsasən, məişət zəminində iqtisadi xarakterli qanunsuz məhdudiyyətlərin tətbiqinə, yəni şəxs tərəfindən digər şəxsin onun mülkiyyətində, sərəncamında və ya istifadəsində olan əmlakdan, gəlirlərdən məhrum edilməsinə, iqtisadi asılılıq yaradılmasına, belə asılılığın saxlanılmasına və ya ondan sui-istifadə edilməsinə yönəlmiş hərəkətlərə görə, həmçinin, məişət zəminində psixi zorakılığa, yəni şəxs tərəfindən digər şəxsə qəsdən psixi təzyiq göstərilməsinə və ya dözülməz psixi şərait yaradılmasına yönəlmiş hərəkətlərə görə inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədilməsinə görə beş yüz manatdan yeddi yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla altmış saatdan yüz saatadək ictimai işlər və ya on beş günədək müddətə inzibati həbs tətbiq olunacaq.

Bundan başqa, məişət zorakılığını törətmiş şəxsə məişət zorakılığının təkrarlanmaması barədə yazılı xəbərdarlığın edilməməsi və ya zərər çəkmiş şəxsə qısamüddətli mühafizə orderinin verilməməsinə görə məsuliyyət müəyyən edilir. Buna görə vəzifəli şəxslər üç yüz manatdan beş yüz manatadək məbləğdə cərimə ediləcək.



**Avropa İttifaqı-Mərkəzi Asiya sammitində beynəlxalq marşrutun Azərbaycan qolu müzakirə olunacaq**



# Transxəzər, Orta Dəhliz və...

Bu gün Asiya ilə Avropanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinin davamı olan Orta Dəhlizin aktuallığı artmaqdadır. Bu ideya dünyada baş verən gərgin geosiyasi proseslər fonunda meydana çıxıb. Azərbaycan işğal altındakı Qarabağı azad etdikdən sonra regionun digər dövlətlərinin də beynəlxalq iqtisadi layihələrdə iştirakına imkan yaranıb. Eyni zamanda, bu Qələbə Azərbaycanın Avropa ilə Asiya arasındakı ticarət əlaqələrində mühüm tranzit məntəqəsi olmasını şərtləndirir. Avropa İttifaqına daxil olan bütün dövlətlər Orta Dəhlizin tez bir zamanda formalaşmasını dəstəkləyir və sərmayə yatırılması məsələsini nəzərdən keçirir. Orta Dəhlizi həmçinin, Asiya ölkələri də dəstəkləyir ki, bu da səbəbsiz deyil. Son dövrlərdə Azərbaycan ərazisindən daşınan müxtəlif məhsulların həcminin artmasının əsas səbəbi Orta Dəhlizdə müşahidə olunan intensivliklə bağlıdır. Şimal və cənub qonşularımız sanksiya altında olduğundan Çin, Mərkəzi Asiya və Avropa Azərbaycandan keçən Orta Dəhlizə daha çox maraq göstərir. Çin nəzərə alır ki, Rusiya-Ukrayna müharibəsi Şimal dəhlizi ilə yükdaşımaları məhdudlaşdırıb. Odur ki, Orta Dəhliz məsafə və müddət baxımından daha səmərəli sayılır.

Hesablamalar göstərir ki, Çindən Avropaya gedən yük qatarı Orta Dəhlizi seçərsə, 12




gün ərzində 10 min kilometr deyil, 7 min kilometr məsafə qət etməlidir. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə dəhlizin nə qədər sərfəli və təhlükəsiz olduğunu nümayiş etdirir. Eyni qatar Cənub dəhlizi üzrə göndərilsə, Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. Bu mənada Orta Dəhliz öz imkanları ilə şübhəsiz ki, region ölkələrinin koordinasiyalı əməkdaşlığı sayəsində dünya ticarətinin ən mühüm həlqələrindən biri ola bilər.

Bu gün Azərbaycan Orta Dəhlizin reallaşmasına töhfə verən əsas ölkələrdəndir. Sözügedən marşrut isə Asiya və Avropanı birləşdirən vacib nəqliyyat dəhlizlərindən birinə çevrilmək üzrədir. Eyni zamanda, Rusiya-Ukrayna müharibəsi fonunda sözügedən dəhlizə marağın artması müşahidə olunur ki, bu da Azərbaycan ərazisindən daha çox yükün daşınması imkanı deməkdir. Orta Dəhlizin vacib elementinə çevrilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin imkanlarının genişləndirilməsi üçün Azərbaycan dövlət büdcəsindən 100 milyon dollar vəsait ayrılıb. Həmin vəsaitin hesabına yolun illik yükötürmə qabiliyyəti 1 milyon tondan 5 milyon tona qaldırılacaq və Orta Dəhliz vasitəsilə daha çox yükün daşınmasına imkan yaranacaq. Bundan başqa, Zəngəzur dəhlizi Orta Dəhlizə inteqrasiya ediləcək layihələrdəndir. Zəngəzur dəhlizinin istifadəyə verilməsi Azərbaycan ərazisindən illik təxminən 35 milyon ton yükün daşınmasına imkan verə bilər. Ötən ilin yekunları göstərir ki, Azərbaycan ərazisindən daşınan yükün həcmində 30 faizdən çox artım qeydə alınıb. Bu da regiona, o cümlədən yükdaşımalar baxımından Azərbaycana marağın artmasından xəbər verir. Region nəqliyyat habına çevrilir, Azərbaycan isə burada aparıcı ölkədir və Zəngəzur dəhlizinin istifadəyə verilməsi ölkəmizin beynəlxalq yükdaşımalarda mövqeyinin gücləndirilməsi baxımından vacibdir.

Orta Dəhlizi bir dəyər zənciri də adlandırmaq olar. Amma daha geniş anlamda, bu dəhlizin üstünlükləri və əhatə coğrafiyası Türk Dövlətləri Təşkilatının (TDT) əsas əlaqələndiricisi kimi çıxış etməyə zəmin yaradır. Dəhlizin trayektoriyası da onun 1 trilyon ABŞ dollarından çox ümumi daxil məhsula (ÜDM) malik Türk dövlətlərini birləşdirən bir layihə olduğunu deməyə tam əsas verir.

Beləliklə, Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələri və Xəzər dənizi üzərindən, Azərbaycan, Gürcüstan və Türkiyə ərazisindən keçərək Asiyanı Avropa ilə birləşdirən marşrutdur. Regionda yaranmış münbit geosiyasi şəraitdə, Avropa və Asiya arasında ən qısa və rahat marşrut olan bu dəhlizə maraq getdikcə artır. Şimal dəhlizinə əsas alternativ olan Orta Dəhlizlə Çindən Avropaya 7 min kilometr məsafə qət etməklə daşınmalar mümkündür. Avropa ölkələri ilə Çin arasında illik ticarət dövriyyəsi 600 milyard dolların üzərindədir.

2020-ci ildən etibarən Orta Dəhliz ilə ayda iki dəfə olmaqla Türkiyədən Çinə müntəzəm olaraq konteynerlərin daşınması reallaşdırılıb. Təkcə 2021-ci ildə Çin-Avropa arasında, hər iki istiqamət üzrə ümumilikdə, dəmir yolu ilə 84,9 milyard dollarlıq yük daşınması həyata keçirilib. 2020-2021-ci illərdə bu dəhlizdə nəql edilmiş yükün ümumi həcmi 350-530 min ton arası olsa da, təkcə 2022-ci ildə bu rəqəm 3,2 milyon tona qədər artıb.

## Aİ-Mərkəzi Asiya sammiti

Aprelin ikinci yarısında Daşkənddə "Avropa İttifaqı - Mərkəzi Asiya" adlı ilk rəsmi sammit keçiriləcək və burada Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və region ölkələrinin prezidentləri iştirak edəcəklər. Aİ Mərkəzi Asiyanı tərəfdaşlığını yeni səviyyəyə qaldırmağa və Avropa ilə Mərkəzi Asiyanı birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutuna (TİTR) 10 milyard avro sərmayə qoymağa dəvət etməyə hazırlaşır. Tədbir ərəfəsində Xivədə Qazaxıstan və Özbəkistanın başçıları Qasım-Jomart Tokayev və Şavkat Mirziyoyev arasında işgüzar görüş keçirilib, görüş zamanı beynəlxalq və regional gündəliyin müzakirəsi xüsusi vurğulanıb.



Daşkənddə keçiriləcək Aİ-CA sammitinə hazırlıq ötən il başlayıb: Lüksemburqda 5+27 formatında xarici işlər nazirləri enerji sektorunda əməkdaşlığın genişləndirilməsi, Aİ ölkələrinin ehtiyac duyduğu mühüm xammalın hasilatı və emalı və s. Aİnin xarici siyasət departamentinin rəhbəri Josep Borrell region ölkələrini "qlobal çağırışları birgə imkanlara çevirməyə" dəvət edib.

"Daşkənddə keçiriləcək sammitdə müzakirə olunacaq məsələlərdən biri də TMTM-in və ya adətən "Orta Dəhliz"in genişləndirilməsi çərçivəsində qarşılıqlı fəaliyyət olacaq. Çünki Avropa Bab əl-Məndəb boğazında dəniz kommunikasiyalarında baş verənləri və Ukrayna ətrafında münaqişənin daha da genişlənməsini nəzərə alaraq, alternativ tapmağa ehtiyac duyur. Lakin Transxəzər marşrutu multimodallığına görə daha mürəkkəb və bahalıdır və buna görə də, məsələn, Qazaxıstan və Rusiyadan keçən Şimal dəhlizi ilə müqayisədə daha az iqtisadi gəlirli və daha az rəqabətlidir. Amma Şimal Dəhlizi, ekspertin fikrincə, sərt sanksiyalar və əks-sanksiya məhdudiyyətlərinə görə daha az cəlbedicidir və bu mənada Orta Dəhlizdən aşağıdır. Buna görə də Avropa TMTM-in inkişafı üçün 10 milyard avrodan çox vəsait ayırmağa hazırdır, amma kredit kimi. "Bu pulu xərcləməzdən əvvəl başa düşməlisiniz ki, infrastruktura qoyulan investisiyaların gəliri aşağıdır. Ona görə də infrastrukturun inkişafı üçün kredit götürsəniz, bu, yığılma effekti verməlidir, o zaman bu, təkcə bir ölkənin deyil, bütün regionun maraqlarına işləyəcək. Buna görə də, nəqliyyat və TMTM-nin inkişafı məsələləri, əlbəttə ki, prezidentlər tərəfindən müzakirə edilib və Aİ-Mərkəzi Asiya sammitində təkcə Qazaxıstan və Özbəkistandan deyil, həm də bütün regiondan təqdim olunacaq ümumi mövqe ortaya qoyulacaq.

Təsadüfi deyil ki, Kasım-Jomart Tokayev Qazaxıstan və Özbəkistan arasında əməkdaşlığı regional tandem adlandırıb. "Qazaxıstan-Özbəkistan tandemi həyati zərurətdir və biz yalnız birlikdə və birlikdə ölkələrimizin davamlı inkişafını təmin edə bilərik", - deyə Qazaxıstan prezidentinin mətbuat xidməti bildirib.

Ekspertlər hesab edirlər ki, bütün regionun taleyi bu tandemin sabitliyindən asılı olacaq. Qasım-Jomart Tokayevin Qazaxıstan-Özbəkistan tandemi ilə bağlı bəyanatı həm hər iki ölkənin vətəndaşları, elitaları, həm də kənar müşahidəçilər üçün göstəricidir. Göründüyü kimi, bu hal Qazaxıstan və Özbəkistanın bir-biri ilə rəqabət aparmadığını, əksinə, ikitərəfli və çoxtərəfli xarakterli ümumən əhəmiyyətli məsələlərin həlli üçün qüvvələrini birləşdirdiyini əks etdirir. Müvafiq niyyətlər və əməkdaşlığın konkret istiqamətləri, görünür, Qazaxıstan və Özbəkistan arasında 2034-cü ilə qədər Strateji Tərəfdaşlıq və Müttəfiqlik Proqramında öz əksini tapacaq. Öz növbəsində belə görünür ki, iki ölkənin real siyasi tandeminin formalaşması Mərkəzi Asiyanın regionallaşmasını sürətləndirə bilər. Astana və Daşkənd öz potensialına görə bu prosesin özəyinə çevrilməyə qadirdir. Bircə qalır lazımi tədbirləri görmək. Deməli, Xivə görüşünün nəticələrinin təkcə ikitərəfli deyil, həm də regional gündəliyə müsbət təsir göstərməsi mümkündür.

Astana və Daşkənd iqtisadiyyatdan başlayaraq ardıcıl olaraq əməkdaşlığı gücləndirməyə doğru irəliləyir. Bu, kiminsə xoşuna gəlib-gəlməməsindən asılı olmayaraq, iki ölkənin mövqelərini yaxınlaşdıran strateji kursdur. Üstəlik, Qırğızıstan, Tacikistan və Türkmənistan bu məsələdən narahatlığını ifadə etmir. Əksinə, regionun iki ən böyük iqtisadiyyatı ilə bir yerdə olmaq, onlarla regional məsələlərin həllində əməkdaşlıq etmək istəyirlər. Qazaxıstan və Özbəkistan tandemi regiona mənfi cəhətlərdən daha çox üstünlüklər verəcək. Üstəlik, başqa ölkələrin maraqlarına toxunmaq məqsədi daşımır.



Qarşıdan gələn sammitdə Mərkəzi Asiyanın təhlükəsizlik probleminin müzakirəsi də son dərəcə vacib olacaq. Bu sahədə real təsir göstərə biləcək ən mühüm ölkələr Rusiya, Çin, ABŞ və Böyük Britaniyadır. Həmçinin Türkiyə, İran və Pakistan əhəmiyyətli dəstək verə bilər. Avropa İttifaqı təəssüf ki, əsas oyunçulardan biri deyil. Lakin Əfqanıstan məsələsi ciddi diqqət tələb edir. Bu problemlərin həlli nəqliyyat-kommunikasiya layihələrinin inkişafı, yaşıl enerjinin və bu regionda əməkdaşlığın digər formalarının tətbiqi üçün zəruri şərtdir.

Növbəti razılaşma Aİ-Cənubi Qafqaz ola bilər və olmalıdır. Əks təqdirdə Mərkəzi Asiyadan Avropaya uzanacaq nəqliyyat uzantıları yalnız Xəzərin dibinə qədər çatar. Azərbaycanda bütün logistik imkanlar yaradılıb, Beynəlxalq səviyyəti dəniz limanı inşa edilib, yüksək ötürücülük qabiliyyəti olan neft və qaz kəmərləri Xəzərin Azərbaycan sahillərindən qardaş Türkiyəyə, oradan isə Avropaya qədər uzanır.

**V.VƏLİYEV**

# "Regionun zəif həlqəsindən - Ermənistandan istifadə olunur"







**"Yeni dünya düzəni uğrunda mübarizədə beynəlxalq hüququn norma və prinsiplərinin əhəmiyyətini itirməsi, qlobal sülhü təmin edən təhlükəsizlik mexanizmlərinin sıradan çıxarılması və güc amilinin ön plana keçirilməsi, şübhəsiz ki, bütün bəşəriyyəti ciddi çağırışlar qarşısında qoyub". Bu sözləri SİA-ya açıqlamasında deputat Azər Kərimli deyib.**

Deputat bildirib ki, belə bir şəraitdə dövlətlərin öz təhlükəsizliklərini təmin etməsi, daxili sabitliklərini qoruyub saxlamaları, inkişaflarını təmin etmələri çox çətindir və bəzən dünyanın yüzillik davamlı dövlətçilik tarixinə malik olan ölkələri belə az qala hər gün dəyişən geosiyasi reallıqlardan doğan çağırışlara cavab verməyə çətinlik çəkirlər: "Bu xüsusda, ölkəmizin nə qədər uğurlu bir siyasət yürütdüyü və doğru strategiya seçdiyi daha aydın görünür. Azərbaycan, məhz belə bir mürəkkəb şəraitdə öz ərazi bütövlüyünü, suverenliyini təmin etməyi bacarıb. Nəinki özünün, bütövlükdə regionun təhlükəsizliyinin təmin edilməsi baxımından mühüm nəticələrə nail olub".

Onun sözlərinə görə, amma bununla yanaşı, hazırda Cənubi Qafqazın geosiyasi qarşıdurmalar arenasına çevrilməsi istiqamətində səylərin səngimədiyini də müşahidə edirik: "Bu prosesdə hər zaman olduğu kimi regionun zəif həlqəsindən -Ermənistandan istifadə olunur. Bu ölkənin ənənəvi olaraq, bölgədə xarici güclərin maraqlarının ifadəçisi kimi çıxış etməsi də diqqətdən yayınmır. Baş verənlərlə bağlı Azərbaycan, Türkiyə və Rusiya açıq və birmənalı mövqe sərgiləsələr də, nədənsə ənənəvi olaraq Qərb ölkələrinə münasibətdə gurultulu bəyanatlar verən İranın səsi eşidilmir, daha dəqiq desək, zorla eşidilir. Rəsmi Tehran özündən min kilometrlərlə kənarda "maraqlarını və təhlükəsizliyini təhdid edən" hansısa qüvvələrə qarşı mübarizə apardığını, Qərbin Yaxın Şərq və Aralıq dənizi hövzəsində yürütdüyü siyasətə qarşılıq verdiyini bəyan etsə də, nədənsə öz sərhədlərinin yaxınlığında, az qala bir neçə metrliyində bölgədənkənar güclərin mövcudluğunu və onların yürütdükləri təhlükəli siyasəti, həmçinin buna imkan yaradan Ermənistanın çirkin oyunlarını görmək istəmir. Şübhəsiz ki, rəsmi Tehranın bu qəbildən olan davranışları İranın digər məsələlərlə, o cümlədən Azərbaycanla "dost, qardaş" münasibətləri ilə bağlı verdiyi bəyanatların, eləcə də İslam həmrəyliyi ilə bağlı iddiaların səmimiliyini şübhə altına alır. Şübhəsiz ki, bütün bunlar təəssüf doğursa da, Azərbaycan, Türkiyə və Rusiyanın prinsipial mövqeyi, bölgədəki qüvvələr nisbəti regionu geosiyasi maraqlarının plasdarmına çevirmək istəyən qüvvələrin niyyətlərinin qarşısını alan əsas amil kimi dəyərləndirilməlidir. Azərbaycanın prinsipial və qətiyyətli mövqeyi isə bu prosesdə önəmli rol oynayır və mühüm əhəmiyyət daşıyır. Bu səbəbdən, ölkəmizin öz milli maraqlarının müdafiəsi istiqamətində nümayiş etdirdiyi qəti mövqe regionun digər ölkələri üçün də nümunə olmalıdır".

MÜNASİBƏT

***Söylü Ağazadə***

# Süni qiymət artımına hansı amillər təsir göstərir?

## *AYDINLIQ GƏTİRİLDİ*

"Dünya bazarlarında da müəyyən əmtəələrin qiymətlərində artımlar var. Amma bundan sui-istifadə edərək əmtəələrin qiymətlərinin artırılması halları xüsusi ilə inkişaf etməkdə olan ölkələrdə baş verir. Məhz bu ölkələrdəki qiymət artımları isə daha çox süni qiymət artımlarıdır. İnkişaf etməkdə olan ölkələrdəki gəlirlər inkişaf etmiş ölkələrdəki gəlirlərlə müqayisədə aşağıdır. Çox təəssüf ki, qiymət artımı inkişaf etməkdə olan ölkələrdə daha çoxdur. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var". Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı ekspert Elman Sadıqov deyib.





Onun sözlərinə görə, süni qiymət artımına səbəb olan bir neçə subyektiv amillər var. Birinci əsas səbəb, inhisarçılıqdır: "İnhisarçılıq və ya monopoliya iqtisadi nəzəriyyədə bazar iqtisadiyyatında kapitalist cəmiyyətinin ən böyük problemlərindən biri kimi xarakterizə olunur. Müxtəlif cərəyanların, iqtisadi nəzəriyyələrin banisi və tərəfdarı olan iqtisadçılar iqtisadi münasibətləri ciddi şəkildə dağıtdığı ilə bağlı yekdil rəyə malikdirlər. Konkret olaraq, monopoliyanın nə olduğunu bilmək üçün bazarı dərk etməliyik. Monopoliyanın təhlükəliliyi ondan ibarətdir ki, bazar münasibətlərinə, bazardakı obyektiv gedişata subyektiv dağıdıcı təsirləri olur".

İqtisadçı sözlərinə davam edərək bildirib ki, bazar münasibətləri əsasında formalaşmalı olan qiymətlər bu münasibətlərlə deyil, monopolist şirkətlərin diqtəsi ilə subyektiv amillərlə tənzimlənir: "Bu, ən böyük problemlərdən biridir. Qiymətlərin təyin olunmasında tələb və təklif, məhsulun satış həcmi, pul dövriyyəsi çox önəmlidir. Yəni bir şirkətdə məhsulun satış həcmi artırsa, həmin şirkət qiymətləri aşağı sala bilir. Çünki daha çox qazanc, hasilat əldə edir. Nəticə etibarı ilə optimal qiymət tapır. Monopolist şirkət isə satış həcminin artmasından asılı olmayaraq, qiymətləri aşağı salmaqda maraqlı olmur. Çünki, məhsul hər bir halda satılacaq. Əgər bayramqabağı bazarda bir neçə həqiqi rəqabətçi şirkət olsaydı dövriyyəni nəzərə alaraq daha çox məhsul gətirərdilər. Rəqabət və məhsul bolluğu nəticəsində də daha çox satmağa çalışardılar. Nə üçün bütün dünyada bayramlarda, festivallarda qiymətlər aşağı enir? Çünki, satıcılar qiymət marjasından daha çox dövriyyədən, satışın artmasından qazanırlar. Nəticədə qiymətlər aşağı enir. İstər siqaret, istərsə də digər məsələlər sadəcə olaraq, şirkətlərin bazardakı mövqelərindən sui-istifadə etmələri deməkdir. İkinci məsələ monopoliya həm iqtisadiyyat, həm də monopolist şirkətlərin özləri üçün təhlükəlidir. Çünki monopolist şirkətlər daha çox subyektiv amillər üzərində böyüyürlər. Nəticədə, şirkətin sağlam böyüməsinin, yoxsa şişməsinin baş verdiyini analiz edə, görə, fərqləndirə bilmirlər".

***Ləman Sərraf***

# "Uşaqları ayrılığa alət etməyək"

## *PSİXOLOQDAN XƏBƏRDARLIQ*

"Düzdür, münasibətlər pisləşəndə daha çox uşaqlar əziyyət çəkir". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Fərqanə Mehmanqızı deyib. Psixoloq bildirib ki, ata-ana bütün hirslərini, nifrətlərini, bir-birinə olan münasibətini, qarşı tərəfi anlamamasını uşaqlara gətirib kökləyirlər: "Həm uşaqların yanında, həm də uşaqlara gətirib bunu danışırlar və uşaqları özlərinin şəxsi münasibətlərinə, şəxsi münasibətlərinin alınmamasına kontakt edirlər. Bu zaman, təbii ki, uşaq psixoloji travma yaşayacaq, uşaqda aqressiya, özünəqapanma, assosiallıq yaranacaq. Ailəsinə, ailə qurmağa qarşı, valideynlərinə, valideyn olmağa qarşı nifrət yaranacaq. Bu birmənalıdır. Amma biz münasibətimizi yetişkin kimi "bizdə alınmır" deyə bitirsək, əksinə olacaq.

Başa düşürəm ki, insanlarda bir-birinə qarşı aqressiya, bir-birini günahlandırmaq hiss olur. Bu, iki tərəfə də məsuliyyət vermirsə, bunu uzatmağın, uşaqda qarşı tərəfə nifrət oyatmağın heç bir mənası yoxdur. Əgər biz uşağa "ayrıldıq, amma dost qalırıq. Ərarvad yox, dost oluruq. Sənin atan, anan olaraq qalırıq. Bunun səninlə mənim münasibətimizə aidiyyəti yoxdur. Biz boşansaq da, ayrı evlərdə yaşasaq da, atan, anan olaraq qalmaqda davam edirik. Sənin məsuliyyətini həmişəkindən də çox üzərimizə götürürük. Bizim ayrılmağımızın səninlə əlaqəsi yoxdur" desək, izah etsək, bu zaman uşaq adi qarşılayacaq və bundan utanmaq, travma yaşamayacaq. Çünki valideynin hansısa hadisəyə reaksiyası nə olursa, uşağın da reaksiyası eyni olur. Uşaq da gündəlik pis münasibətdə hər gün baş verən davadan, kinlə baxan atadan, anadan canını qurtarır. Amma bunun əvəzinə xoş münasibət, sakitlik, qayda-qanun görürsə, uşaq da buna normal baxacaq. Bu normal baxış onda travma yaratmayacaq".



"Biz çalışmalıyıq ki, problemimizi özümüz həll edək. Uşağı buna alət etməyək. Bəzən ana atadan intiqam almaq üçün uşağı ataya qarşı öyrədir. Ata bəzən uşağı anaya qarşı öyrədir. Bunları buraxmaq lazımdır. Onsuz da, səndə münasibət alınmayıb. Heç kim boşanmaq istəməz. Amma bu, yaşanmaz hala gətiribsə, cəmiyyətə, uşaqlara ziyan verirsə, deməli, toksik ailədir. Toksik münasibəti davam etdirməyin heç bir xeyri yoxdur. Qanqrena verən əl-ayaq kimidir, vaxtında kəsib atmaq lazımdır ki, daha da çox zərər verməsin. Bir var ki, iki nəfər zərər görə, bir də var ki, uşaqlar və cəmiyyət zərər görə. Travmalı uşaqlardan cinayətkar, aqressiya dolu insanlar yaranır. İki nəfərin pis münasibətindən cəmiyyət də zərər görməyə başlayır. Ona görə də uşaqlara ata-anasını pisləməyərək normal şəkildə ayrılmaq lazımdır. Ümumiyyətlə, bizdə ayrılmağa qarşı təlatüm var. İnsan birləşər də, ayrılar da. Buna normal baxmaq lazımdır. Ayrılmaq istəməməyin səbəbləri araşdırılmalıdır. Münasibəti ayrılmağa qədər gətirmək lazım deyil. Əgər gətirmisənsə, bundan sonrasını daha səbrli olmaq, eyni səhvləri etməmək lazımdır" - deyə o əlavə edib.

***Söylü Ağazadə***

BAXIŞ BUCAĞI





# Qırmızı Xaç, yoxsa erməni xaşı?

44 günlük Vətən müharibəsində Azərbaycanın qalib gəlməsi xarici ölkə və təşkilatların bir çox planlarının üstündən xətt çəkdi. Bir çox ölkənin qazanc qazanının altındakı odu söndürdü, çirkin layihələrini dondurdu və nəhayət onların uzun müddətə hesablanmış missiyasını darmadağın etdi. Həmin təşkilatlardan biri də Beynəlxalq Qırmızı Xaç Komitəsidir (BQXK). Bu təşkilat fəaliyyətində humanizmi, mərhəməti rəhbər tutsa da əməlində tam fərqlidir. Keçmişdə də belə olub, indi də. Dünyanın nüfuzlu təşkilatı kimi özünü təsdiq etməyi bacaran BQXK yaradılarkən nizamnaməsində birmənalı olaraq qeyd olunurdu ki, mövcud olan xalqların haqlarını qorumaq üçün ədalətli mübarizə aparacaqlar. Təəssüf ki, 30 il ərzində BQXK dünyanın əksər təşkilatları kimi nəhəng dövlətlərin əlində alətə çevrilib. Xoşbəxtlikdən, işğal altında olan torpaqlarımızın taleyini onlar yox, Azərbaycan xalqı, ordusu və orduya rəhbərlik edən Ali Baş Komandanın böyük səyi nəticəsində həll olundu.Beynəlxalq Qırmızı Xaç Komitəsi 44 günlük müharibəyə qədər nələri etdiyinin bəzilərini bilirdik, lakin çoxu sirr idi. Ermənistan BQXK-nin adından istifadə edərək Qarabağa silah, mərmi və mina daşıdığı vaxt onun əsl üzü açıldı. Ona görə də əslində bizim üçün belə təşkilatlar yoxdur. Mövcud olsalar belə biz əminik ki, onlar Azərbaycanın haqq işini müdafiə etməyəcəklər. Çünki onların xisləti ermənilərinki ilə eynidir. Fakta diqqət edin: Avropa dövlətlərindən birinin XİN rəhbəri Ermənistana gedərək Azərbaycan torpaqlarını işğal edən və oradan qovulan yaralı erməni əsgərinə gül verib. Görəsən, həmin nazirdən soruşan varmı ki, o əsgər vətənini müdafiə edirkən yaralanıb, yoxsa işğalçı ordunun tərkibində başqa ölkənin ərazisində cinayətlər törədib?! Xarici işlər naziri isə baş verənlərdən sanki xəbərsiz kimi üzündə təbəssümlə əsgərə gül təqdim edir.BQXK haqqı müdafiə etmiş olsaydı, təəccüblənərdik. Çünki onların arasında bizi başa düşən adamlar yoxdur, ancaq yuxarıdan aldıqları əmri icra edirlər. Bütün Azərbaycan xalqı bilir ki, 44 günlük müharibə dövründə dünyanın guya nüfuz qazanmış dövlət başçıları və beynəlxalq təşkilatları Azərbaycanı təhdid etdilər.

Lakin Azərbaycan onların təhdid və hədə-qorxularını qəbul etmədi. Azərbaycan haqq-ədalət yolu ilə getdi. Nəticədə öz torpaqlarını azad edərək 30 ildir həsrət çəkən xalqını o ərazilərə köçürməyi planlaşdırdı. Artıq Laçın, Füzuli, Zəngilana köç prosesi həyata keçirilir. Dövlət bunun üçün onlara hər cür qayğı göstərir. 44 günlük müharibə ilə bu qayıdışın bünövrəsi qoyuldu və bu gün Azərbaycan xalqı bu istiqamətdə əlindən gələni edir. "Humanitar yardım" şousu adı ilə guya Azərbaycanın tarixi şəhəri olan Xankəndiyə Ermənistan paytaxtından - İrəvandan tırlarla göndərilən yardımlar adı ilə növbəti təxribatı həyata keçirməyə çalışdı və bunun dünyaya çatdırılması üçün Avropa İttifaqını da məsələyə qoşdu. Təbii ki, baş verənlər fonunda Azərbaycan dövləti də məsələləri diqqətlə izləyib və ona uyğun davrandı. Dövlətimiz müxtəlif müstəvilərdə dəfələrlə bəyan edirdi ki, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi ərazilərə malların daşınması üçün Ağdam-Xankəndi yolu istifadə oluna bilər. Üstəlik, yolun texniki və təbii göstəriciləri, xüsusilə işğaldan sonra yenidən qurulmaqda olan Bərdə-Ağdam yolu malların daha sürətli və səmərəli şəkildə çatdırılmasına imkan yaratdığı halda, özünü qondarma rejimin təmsilçiləri adlandıran şəxslərin bu yoldan istifadədən imtina etmələri tamamilə başadüşülən deyil-di.Azərbaycan tərəfinin erməni sakinlərin ehtiyaclarının qarşılanması üçün "Ağdam-Xankəndi" yolundan və digər alternativ yollardan istifadə daxil olmaqla, bir sıra təkliflər irəli sürməsinə və bu təkliflərin Avropa İttifaqı, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) tərəfindən dəstəklənməsinə baxmayaraq, erməni tərəfinin bütün təkliflərə, eləcə də Azərbaycanın qeyd etdiyi yollar vasitəsilə BQXK tərəfindən yüklərin daşınmasına qarşı çıxması, müvafiq humanitar fəaliyyətə maneçilik törədilməsi, alternativ yollara beton maneələr düzməklə əraziyə girişi bloklaması onların humanitar vəziyyət barədə iddialarının siyasi şantaj olduğunu göstərirdi. Bu addımlar, humanitar fəaliyyəti siyasiləşdirməklə yanaşı, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün tanınmasına dair bəyanatlarla ziddiyyət təşkil edir.Gördüyümüz kimi, regionda sülhün tərəfdarı olduğunu bildirən və bu istiqamətdə "yorulmaz" fəaliyyət göstərən bu aktorlar özləri də fərqinə varmadan əsl əməllərini üzə çıxarırlar. Təbii ki, regionda sülhün olmasını istəməyən, sülh müqaviləsinin imzalanmasının uzanmasının tərəfdarı olan erməni tərəfi üçün bunlar uğurlu nəticə hesab olunur. Ermənistanın yeganə məqsədi təxribata əl atmaq, sülh prosesinə əngəl yaratmaq, prosesi maksimum yubatmaqdır ki, sözügedən fəaliyyət regionda sülh və təhlükəsizliyə təhdid xarakteri daşımaqdadır.

Qırmızı Xaç Komitəsinin davranışları Azərbaycan tərəfindən xeyli suallar yaradır və cənab Prezidentin də dilə gətirdiyi məsələ bununla bağlıdır. Bütün dünya, ölkələr, o cümlədən Qırmızı Xaç Komitəsi Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Azərbaycanın da ərazi bütövlüyünü tanıyıbsa demək ki, Qırmızı Xaç Komitəsi Azərbaycan-Ermənistan sərhədini "su yolu" kimi keçib gedə bilməz. Azərbaycan onların Xankəndi ofisini Bakıya köçürmələrini tələb edirsə bu, belə də olmalıdır. Çünki Azərbaycan sərhədini istənilən vaxt bağlaya da bilər və nəyə görə Qırmızı Xaç Komitəsi üçün açıq buraxılmalıdır? Azərbaycan insanları əlini qolunu sallayıb Ermənistan sərhədindən keçib gedə bilərmi? Buna görə də bu hərəkətlər hansı yanaşmaya, hansı qanuna sığır? Əminliklə deyə bilərik ki, Azərbaycan öz suveren ərazisində öz ərazisi, sərhədi ilə bağlı istənilən qərarı vermək səlahiyyətinə malikdir.

Heç kim bizə deyə bilməz ki, sərhədini aç və kimsə oradan istədiyi formada gedib gəlsin. Bu, mümkün deyil və Azərbaycan da bununla bağlı fikirlərini Qırmızı Xaç Komitəsinə çatdırdı.4 min nəfərə yaxın azərbaycanlı Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində itkin düşsə də, ötən 30 illik dövr ərzində onların aqibəti, taleyi barədə Beynəlxalq Qırmızı Xaç Komitəsinin nəzərəçarpacaq uğurları olmayıb. Minlərlə ailə hələ də közərən ümidlə xəbər gözləyir. 90-cı illərdə Beynəlxalq Qırmızı Xaç Komitəsi 54 nəfər azərbaycanlı əsirlə bağlı izə düşmüş, Ermənistan tərəfi ilə dialoq nəticəsində onlardan 17 nəfərinin meyitlərini alaraq Azərbaycan tərəfinə təhvil vermişdi. Ancaq həmin siyahı üzrə 37 nəfərin taleyi hələ də bilinmir. Onlar sağdılar, yoxsa öldürülüblər, öldürülüblərsə, meyitləri niyə ailələrinə təhvil verilməyib? Beynəlxalq Qırmızı Xaç Komitəsi niyə bu məsələ ilə yaxından məşğul olmur? Axı, Azərbaycan tərəfi ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında həmin 54 nəfərin əsirlikdə olduğunu təsdiq edən yazışmalar indi də qalır. Məktubda qeyd edilib ki, BQXK özünü müstəqil, bitərəf və qərəzsiz təşkilat hesab edir. Ancaq Azərbaycan münasibətdə bu əsas prinsiplərin pozulması başadüşülən deyil.2000-ci illərdə Beynəlxalq Qırmızı Xaç Komitəsi Azərbaycan hökuməti ilə razılaşdırmadan onun suveren ərazisi olan Xankəndidə ofis təşkil etdi və bu barədə qondarma, separatçı rejimlə "saziş" imzaladı. Azərbaycan tərəfinin dəfələrlə rəsmi müraciətlərinə baxmayaraq, həmin "saziş" konfidensiallıq adı altında gizlədildi, təqdim edilmədi. Sonradan məlum oldu ki, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Xankəndi ofisi təşkilatın Bakıdakı nümayəndəliyinə deyil, İrəvandakı nümayəndəliyinə tabe edtirilib.2020-ci ildə 44 günlük müharibədən sonra da bu vəziyyətin dəyişmədən qalması dözülməzdir. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşada "Euronews" televiziya kanalına müsahibəsində səsləndirdiyi kimi, Xankəndi ofisinin məhz Bakıdakı nümayəndəliyə tabe etdirilməsi tamamilə haqlı və legitimdir. 1991-ci ildə Meşəli soyqırımını törətmiş müharibə cinayətkarlarından biri olan Vaqif Xaçaturyanın Laçın postunda Beynəlxalq Qırmızı Xaç Komitəsinin avtomobilində aşkar edilməsi bu təşkilatın əslində hansı işlərlə məşğul olduğunu üzə çıxarır. Bununla əlaqədar Meşəli soyqırımı qurbanları beynəlxalq ictimaiyyətə Açıq Məktub da ünvanlayıblar. Beynəlxalq Qırmızı Xaç Komitəsinin bayrağı və avtomobilləri müharibə cinayətkarlarının sığınacaq yeri olmamalıdır, bu, onlara heç bir toxunulmazlıq və hüquqi immunitet verə bilməz.

**V.VƏLİYEV**



Elçin Bayramlı

# Qorxunc təhlükə: Çoxluğa çevrilməkdə olan azlıq

**Müasirlik və azadlıq adı altında hər cür əxlaqsızlıq və murdarlıq prosesinin təbliği qlobal miqyasda getdikcə genişlənir və yayılır. Azərbaycanda da bu proses xüsusi qüvvələr tərəfindən 30 ildən çoxdur ki, aparılır və artıq çox ciddi nəticələr əldə ediblər. Ölkədə cinsi azlıq nümayəndələrinin sayı kəskin artıb, üstəlik, insanlar bu halı normal qəbul etməyə başlayıb. Cinsi azlıqlar öz həyatlarını açıq şəkildə təbliğ edirlər. Burada tam bir "Overton pəncərəsi" tətbiq olunduğunu görürük.**

Cinsi anormallıqların və bu kontekstdə əxlaqsızlıq hallarının artmasının fərqli səbəbləri var. Əsas səbəblərdən biri qidalarla bağlıdır. Bəzi qidalar, xüsusilə, hormonal qidalar (məsələn broyler məhsulları) və süni qida qatqıları, həmçinin genetik modifikasiya olunmuş məhsullar orqanizmdə genom proqramını pozur və hormonal dəyişikliyə səbəb olur. Bu da cinsi azlıqların sayının artmasına təsir edir.

İkinci bir səbəb mənəvi-psixoloji deqradasiya ilə bağlıdır. Belə ki, əyləncə və ekstra həzz üçün bir çoxları qeyri-ənənəvi əlaqələrə üstünlük verirlər ki, bunun da sonu faciəvi bitir. Bir çoxları Amerika və Avropa ölkələrinə baxıb bunu müasirlik kimi qəbul edir və "fərqli yaşamaq istəyirəm" deyib belə yollara əl atır. Baxır ki, belə adamlar Qərb ölkələrində ən hörmətli vəzifələrdə işləyir, çox məşhur və nüfuzlu olurlar. Üstəlik, cinsi azlıq nümayəndələrinə Avropa fondlarından müxtəlif formalarda yardımlar göstərilir. Bunlar həvəsləndirici faktorlardır.

Daha bir səbəb isə bioloji anomaliyalardır. Belə ki, nadir hallarda da olsa, bəzən insanlarda hələ uşaqlıqdan digər cinsə uyğun xarakterlər və bədən quruluşu formalaşır. Bu artıq tibbi anormallıqdır və ciddi müalicəsinə ehtiyac olan xəstəlikdir. Təəsssüf ki, bizdə belələrinin müalicəsi təşkil edilmir.

Bu səbəblərin aradan qaldırılması üçün çox ciddi tədbirlər görülməlidir. Tendensiyanın bu formada davam etməsi strateji planda böyük təhlükədir. Milli genofondun məhv olmaması üçün dövlət 2 istiqamətdə iş görməlidir;

1. Cinsi azlıqlarla bağlı dövlət tərəfindən xüsusi reabilitasiya mərkəzləri yaradılmalıdır. Belə şəxslər aşkar olunduqca dövlət tərəfindən məcburi şəkildə ora cəlb olunmalıdır. Həmin mərkəzdə həm bioloji formada orqanizm sağlamlaşdırılmalıdır, həm də mənəvi-psixoloji reabilitasiya aparılmalıdır. Bu şəxslər müəyyən müddət müalicə olunub, normal həyata qayıtmalıdır.

2. Cinsi azlıq nümayəndəsi olmağa həvəsləndirən zərərli təbliğatların qarşısı alınmalıdır. Məsələn, mediada, sosial şəbəkələrdə bunu təbliğ edənlər sərt cəzalandırılmalıdır. Bu sahədə kompleks proqramlar həyata keçirilməlidir. Uşaqların asidə vaxtlarının təşkil üçün işlər görülməlidir, onlar yaradıcılıq və idman mərkəzlərinə cəlb olunmalıdır.

Cəmiyyət isə uşaqlarla bağlı həssas yanaşma göstərməlidir. Gənclərə, uşaqlara valideynlər tərəfindən nəzarət artırılmalıdır. Uşaqların normal şəkildə inkişafına diqqət edilməlidir. Qızları xanım, oğlanları da kişi kimi böyütmək lazımdır. Uşaqda hər hansı bir neqativ meyil aşkarladığı an qarşısının alınması üçün çox ciddi fəallıq göstərilməlidir. Uşaqların dost dairəsinə diqqət edilməlidir. Onların kənar təsirə düşməməsi üçün daim nəzarətdə saxlanmalıdırlar.

Bəli, bütün dünyada, o cümlədən bizdə cinsi azlıqların və hər cür mənəviyyatsızlığın təbliği ilə məşğul olan xüsusi qüvvələr var. Onlar kütləvi əxlaqsızlığın yayılmasında maraqlıdır və bu işə külli miqdarda vəsait ayrılır. Dünya üzrə on milyardlarla dollar vəsait bu təbliğatlara xərclənir.

Genofondumuzun məhv olmaması üçün bu sahəyə xüsusi nəzarət olunmalıdır. Gözümüzün qabağında proses mənfiyə doğru gedir. Vaxtında qarşısı ciddi şəkildə alınmasa, bunun sonunun necə olacağını təsəvvür etmək çətin deyil. Cinsiz azlıqlar cinsi çoxluğa çevriləcək və normal adamlar azlıqda qalıb onların diqtəsi ilə yaşamağa məcbur olacaq.

Ailə dəyərlərinin dağılması üçün aparılan uzun müddətli təbliğatın hansı faciəyə gətirib çıxardığını gördük, 50 faizə çatan boşanma ilə dünya rekordu vurduq və həmişə öyündüyümüz möhkəm Azərbaycan ailəsi modeli dağılıb getdi.

İndi də daha dəhşətli bir təhlükə ilə üz-üzəyik. Sağlam cəmiyyət, sağlam gələcək istəyiriksə, bu problemi həll etmək üçün dövlət və cəmiyyət olaraq işə girişəcəyik. İstəmiriksə, onda belə də davam edək...

# Əli Kərimli və dəstəsi təxribatlar planlaşdırır

***Bu gün ki, dünyanın mənzərəsi heç də ürək açan deyil. Hər yerdə müharibələr, münaqişələr, hər bölgədə insan faciələri, iniltiləri, harayları eşidilir. Kimsə kiminsə imdadına yetib, əlini uzadıb kömək etmək haqqında da düşünmür. Çünki çoxlarının başı öz dərdinə qarışıb. Şükürlər olsun ki, Azərbaycan qarışıq dünyamızda sakitlik, sabitlik adasıdır. Möhkəm əsaslara malik ictimai siyasi sabitlik fonunda sosial, iqtisadi inkişaf hökm sürür. İnsanların yaşayışı günü - gündən daha da yaxşılaşır. Bu uğurların, ürək açan proseslərin fonunda işğaldan azad edilən ərazilərimiz yenidən qurulur, keçmiş qaçqın və məcburi köçkünlərimiz yurd-yuvalarına qayıdırlar.***

Təəssüflər olsun ki, Azərbaycanın qazandığı nailiyyətlər dostları sevindirir, düşmənlərin isə bağrını yarır. Sonuncular Azərbaycanı da qarışdırmaq, sabitliyi pozmaq üçün hər cür çirkin vasitə və üsullardan istifadə edirlər. Yenə də təəssüflər olsun ki, sap özümüzdən olan baltalar düşmən dəyirmanına su tökmək yolu tuturlar. Xüsusilə də Müsavat, AXCP, Milli Şura təmsilçiləri xaricdən hansı havanı sifariş verirlərsə, həmin havanın sədaları altında çirkin oyunlar qurub, ölkə də sabitliyə xələl gətirməyə hesablanan addımlar atırlar.



Əli Kərimli deyilən SOROS-un kuklası başının təxribatçı trol dəstəsi ilə hər gün, səhərdən axşama qədər nəzarətsiz zona hesab olunan sosial şəbəkələr də pozuculuğa hesabalanan statuslar paylaşır. Hətta Ə.Kərimli o dərəcə təsir altındadır ki, sosial şəbəkə hesabında iddia edir ki, guya Azərbaycanda "siyasi məhbus"lar var. Həm də sayıqlamasında qeyd edir ki, seçkilər qeyr-demokratik keçirilir. Adama deyən lazımdır ki, "siyasi məhbus" anlayışını hansı kriteriya əsasında formalaşdırıb, dilə gətirirsən?

İkincisi, Qubad İbadoğlu, Tofiq Yaqublu və ya Nazim Baydəmirli nə zamandan "siyasi məhbus" olublar? Azərbaycan hüquq-mühafizə orqanları əsaslı faktlar əsasında sözügedən şəxslərin cinayət törətdiklərini sübuta yetirib. Təbii ki, məhkəmə məsələyə hüquqi qiymət verəcək. Ona görə də, hay-küy qaldırmaq mənasızdır, bu hal istintaq orqanlarına bilərəkdən təzyiq etmək cəhddir ki bu da qanunvericiyə görə yolverilməzdir.

### "İt motaldan əl çəkdi, motal itdən əl çəkmədi"

Q.İbadoğlunun qardaşı, deputat Vüqar Bayramlı qardaşının həbs olunmasından müxalif şəxslərin siyasi divident əldə etmək üçün istifadə etməyə cəhd etmələrinin iyrənclik olduğunu bildirib: "Cəmiyyətdə ciddi qəbul olunmayan bir sıra fiqurlar və xəbər portalları tərəfindən yayılan spekulyativ açıqlamalar sadəcə təəssüf doğurur.İnanırıq ki, araşdırmalar obyektiv aparılacaq və hüquqi dövlət prinsiplərinə uyğun ədalətli qərar qəbul ediləcək".

Gözləmək olardı ki, qardaşının baş verənlərə sərt münasibətindən sonra Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri susacaqlar, əski mövqelərinə çəkilib məhkəmə qərarını gözləyəcəklər. Lakin "it motaldan əl çəkdi, motal itdən əl çəkmədi" məsəlinə uyğun olaraq Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri Q.İbadoğlunun yaxınlarının haqlı iradlarını nəzərə almayıb, öz qərəzli təxribatçı açıqlamalarını davam etdirirlər. Hətta utanıb çəkinmədən, bu və digər özlərindən uydurduqları məsələnin insanlarla müzakirə etmək üçün mitinq keçirmək niyyətində olduqlarının bildirirlər. Söz yox ki, "siyasi məhbus" məsələsi bir bəhanədir. Başlıca məkrli niyyətləri mitinqlər vasitəsi ilə Bakı şəhərində təxribatlar törətmək və COP29 ərəfəsi bəzi beynəlxalq təşkilatların diqqətini özlərinə cəlb etməkdir.

### Dağıdıcı müxalifət COP29 ərəfəsi təxribatlar törətməklə bəzi beynəlxalq təşkilatların diqqətini özlərinə cəlb etməyə çalışırlar

Məlum faktdır ki, ölkəmiz mühüm beynəlxalq tədbirə hazırlaşır. Noyabr ayında keçiriləcək COP29 konfransına 100 mindən çox qonağın gəlməsi planlaşdırılır. Bu məqsədlə ölkəmizin bütün müvafiq qurumları və əməkdaşları tədbirin ən yüksək formada keçirilməsi üçün səfərbər olunub. Bu məqam da Əli Kərimli icazəsiz aksiyalar keçirməklə bir neçə çirkin məqsəd güdür. Birincisi yuxarıda qeyd etdiyimiz kimi, əksər ölkələrdə yaşanan kövrək sabitliyi Azərbaycanda da yaşatmağa çalışacaqlar. İkincisi, COP29 ərəfəsi bütün dünyanın diqqətinin Azərbaycana yönəldiyini anladıqlarından polislə qarşıdurmalar yaratmaqla beynəlxalq təşkilatların diqqət mərkəzinə çevrilməyə ümid bəsləyirlər. Üçüncüsü isə, müxtəlif qarşıdurmalar və pozuculuq aktları ilə törətməklə maddi və mənəvi dəstək aldığı xarici şəbəkənin gözündə yüksəlməyə ümid edirlər. Lakin anlamırlar ki, çoban qoyun itindən sürüyə zərər verməyə çalışan qurddan qorunmaq üçün istifadə edir. Onun yeri evin kandarından yaxın ola bilməz. Yalı da quru kəpəyi keçməz. Bu baxımdan dağıdıcı müxalifət doğulub boya-başa çatdıqları ölkəsinə sifarişlər əsasında ziyan vurmağa çalışsalar da qazancları qəpikquruşdan artıq olmayacaq. Digər tərəfdən çox cəhd etsələr də məkrli niyyətlərini reallaşdıra bilməyəcəklər. Çünki Azərbaycan dünyaya hökm edə biləcək böyük gücə malik dövlətdir. Bu baxımdan heç bir qüvvə, o cümlədən dağıdıcı müxalifət və onların havadarları ölkəmizdəki möhkəm əsaslara malik ictimai sabitliyi poza bilməz.

***İLHAM ƏLİYEV***

---

# "Bu gün mövcud olan bəzi ixtisaslar tamamən sıradan çıxacaq"

*EKSPERT AÇIQLADI*

"2023-cü ildə keçirilən qəbul imtahanlarının nəticələrini təhlil edəndən sonra məlum oldu ki, keçən il Azərbaycan bölməsində I qrupda abituriyentlər ən çox Bakı Ali Neft Məktəbinin "Neft-qaz mühəndisliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə", III qrupda Bakı Dövlət Universitetinin "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi", IV qrupda Azərbaycan Tibb Universitetinin "Müalicə işi" ixtisaslarına üstünlük veriblər. I, II və IV qruplarda rus bölməsində 2023-cü ildə abituriyentlərin seçimi Azərbaycan bölməsi ilə eyni olub. III qrupda isə rus bölməsinin abituriyentləri Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili)" ixtisasına daha çox üstünlük veriblər". Bu sözləri SİA-ya açıqlamasında təhsil üzrə ekspert Kamran Əsədov deyib.







O bildirib ki, əvvəlki illərdə olduğu kimi, bu il də proqnozlaşdırıram ki, hər iki bölmənin orta statistik oğlan abituriyentinin istəyi ən çox "Riyaziyyat, fizika və mühəndislik" (I qrup) və "İqtisadiyyat və idarəetmə" (II qrup) ixtisaslarına olacaqdır: "Orta statistik qız abituriyentin özündə humanitar ixtisasları birləşdirən III ixtisas qrupuna istəyi çox yüksəkdir. Apardığım təhlilər göstərir ki, Azərbaycan bölməsində qız abituriyentlər həmişə olduğu kimi "İqtisad və idarəetmə ixtisaslarına" (II qrup) az maraq göstərirlər.

Azərbaycanda gələcəyin ixtisasları nə ola bilər, bu haqda düşünən yoxdur. 20-30 ildən sonra bu gün mövcud olan bəzi ixtisaslar tamamən sıradan çıxacaq. Onun yerini isə başqa ixtisaslar alacaq. Ona görə də bunun araşdırması lazımdır ki, bizə 15-20 ildən sonra hansı ixtisaslara ehtiyac olacaq. Bu haqda düşünən yoxdur. Mən özüm Azərbaycanın əmək bazarına hansı ixtisaslar lazım olacaq, onu bilirəm. İstər elmdə, istərsə də kənd təsərrüfatında, iqtisadi həyatın bütün sahələrində, sosial həyatımızda dünya çapında gedən dəyişiklikləri izləyir və bilirik. Azərbaycanın əmək bazarına bu hansı dəyişikliklərlə təsir edəcək, 10-15 ildən sonra hansı ixtisaslara ehtiyac olacaq biz bunu müəyyənləşdirməli, bilməliyik ki, strateji planımız olsun. Təəssüf ki, bu istiqamətdə heç bir araşdırma və düşüncələr yoxdur.

İndi yeni peşələr açılır. Əvvəlki peşələrin bir çoxu sıradan çıxır. Artıq 20 il bundan əvvəl olan bəzi peşələr yoxdur və olmayacaq da. Bu proses getdikcə gedəcək, biz 4-cü industrial inqilab içərisindəyik. Artıq bilinir ki, hansı peşələr 5 ildən sonra olmayacaq. Ona görə biz o yeni peşələri gərək mənimsəyək. Gərək imkan yaradaq bizim vətəndaşlara ki, o peşələrə onlar yiyələnsinlər. Ona görə bu sahədə həm müəllimlərin üzərinə böyük vəzifə düşür, həm də tələbələr daim çalışmalıdırlar.

Bu gün bizim nəinki yaxşı mühəndisə, hətta yaxşı ustaya da ehiyacımız var. Ancaq diplom sahibinə yox, həqiqi mütəxəssisə. Bu təlabat getdikcə daha da artcaq. Hesab edirəm ki, universitetdə daha lazımlı ixtisasların yaradılmalıdır. Bir çox fakültələrdən məzun olan insanların sonrakı fəaliyyəti ilə bağlı analiz göstərir ki, 20-30 il ərzində oxuduqları ixtisaslar üzrə aldıqları təhsil bu gün və ya sabah lazımsız olur. Sovet dövründə iş yerinin çox olmasına baxmayaraq, bizdə neft ixtisasları populyar deyildi. Amma indi yüksək bal toplayanların yarıdan çoxu neft ixtisaslarını seçirlər. Bir vaxt bizdə populyar olmayan gömrük ixtisası da artıq dəbdədir. Eyni sözü İT mühəndisləri barədə də demək olar.

Məsələn, radiotexnika ixtisası var. Artıq XXI əsrdir, radiodan istifadə edənmi var? Bu sahə üzrə çoxsaylı mütəxəssisəmi ehtiyacımız var? Mexanika mühəndisliyini də qeyd edə bilərik. Artıq dünya kompüter texnologiyalarına, avtomatik idarəetməyə keçib. Amma biz hələ də mexaniki idarəetmədəyik. Bir-birinə yaxın olan ixtisaslar da var ki, ixtisarlara böyük ehtiyac var. Bu ixtisaslar açıqca bir-birini təkrarlayırlar. Sənayenin təşkili və idarə olunması da, biznesin təşkili və idarə olunması da var. Bu axı düzgün deyil. Kommersiya ixtisası da var. Marketinq, menecment varsa, kommersiyaya nə ehtiyac var? Bunları proqnozlaşdıra bilərəm. Məsələn, 2033-cü ilə qədər ölkəmizdə 50-yə yaxın ixtisasa ehtiyac olmayacaq. Bizim apardığımız rəylər bunu deyir. Kənd təsərrüfatı sahəsində çox ixtisasa ehtiyac yoxdur. Biz ayrıca şərab mütəxəssisi açmışıq. Halbuki rayonlarda heç orta təhsilləri olmayan insanlar var ki, yüksək səviyyədə şərab istehsalı ilə məşğul olurlar. Bunun üçün ayrıca təhsil almağa nə ehtiyac var? Bunu peşə, orta ixtisas təhsili müəssisələrində hazırlaya bilərik. Bizdə daha çox texnologiya sahəsindəki ixtisaslar köhnəlib. Evimizdə elektrik avadanlığını özümüz düzəldirik. Elektrik mühəndisliyini oxumağa nə gərək var? Ali təhsil fundamental elmi işlərlə məşğul olmaq üçündür. Hazırda 50-dən çox ixtisas var ki, ölü ixtisaslardır. Bunlara əmək bazarında heç bir ehtiyac yoxdur".

***Səbinə Hüseynli***

# “Ermənistan Qərbin təhriki ilə Azərbaycanı təxribata çəkməyə çalışır”

*Rusiyalı ekspert İqor Korotçenko: "Azərbaycana qarşı ittifaq qurulur: Ermənistan, ABŞ, Aİ, Fransa, Yunanıstan, Hindistan və digər peyk ölkələri ilə"*

**“Kaspi” Strateji Tədqiqatlar İnstitutunun (Rusiya) baş direktoru İqor Korotçenko Cənubi Qafqazda sabitliyin pozulması təhlükəsi haqqında ”Moskva-Baku” portalına müsahibəsində maraqlı məqamlara toxunub. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə deyib ki, İrəvan Moskva ilə mübahisə etmək istəmir, lakin belə imkanı və gücü olmadığına görə yox. Ermənistan hansı gücü və hansı imkanları ilə öyünür?***

- Aprelin 5-də Brüsseldə Nikol Paşinyanın ABŞ dövlət katibi və Avropa Komissiyasının rəhbəri ilə görüşündə Qərbin bu güc mərkəzlərinin Ermənistana dəstək verməsi ilə bağlı müəyyən razılaşmalar əldə olunub, ona görə də Ermənistanın baş naziri bu gün belə bəyanatlar səsləndirir. Və bununla da onu nümayiş etdirir ki, nüfuzlu Qərb oyunçuları onun arxasında dayanır və o, İrəvanın qeyri-dost addımlarına cavab olaraq Rusiyanın potensial hərəkətləri ilə bağlı heç bir nəticəni nəzərə almadan Moskva ilə sakit danışa bilər.

Brüsseldə bağlı qapılar arxasında Paşinyan, Blinken və fon der Leyen yəqin ki, Ermənistanın yeni təhlükəsizliyi, eləcə də onun yeni hərbi komponenti məsələsini müzakirə ediblər. Mən hesab edirəm ki, ilk növbədə Ermənistana Qərb silahlarının hərbi təchizatının daşınması müzakirə olunub. Fransa hazırda burada əsas rol oynayır. O, Ermənistanın yaxın illərdə inkişaf etdirəcəyi Qərb standartlarına əsaslanan hava hücumundan müdafiə sisteminin əsas elementləri olan qısa mənzilli zenit-raket kompleksləri və hava monitorinqi radarlarını tədarük edir. Üstəlik, Brüsseldə, görünür, kibertəhlükəsizlik və informasiya əməliyyatları sahəsində Ermənistana koordinasiyalı dəstəkdən danışıblar. Elan edildiyi kimi, ictimai rəylə işləyəcək bir qrup amerikalı hərbçinin respublikaya bu yaxınlarda olan səfəri Paşinyanın Rusiya ilə münasibətlərdə artıq həddi aşması kimi səciyyələndirilə bilər. ABŞ informasiya əməliyyatları sahəsində yaxşı səriştələrə malikdir. Və belə olan halda, amerikalı təlimatçıların Ermənistana hərtərəfli dəstəyi respublikanın rusiyapərəst vətəndaşlarına, eləcə də bütövlükdə Rusiyaya, eləcə də onun qonşularına - Azərbaycan, Türkiyə, İrana qarşı hərəkətləri əhatə edəcək. Amerikalı təlimatçıların köməyi ilə manipulyasiya texnologiyaları Ermənistanda ən fəal şəkildə, o cümlədən Paşinyanın ölkə daxilində mövqelərini gücləndirmək üçün istifadə olunacaq.

Qərbin və Ermənistan hakimiyyətinin bütün bu addımlarının son məqsədi Ermənistanda Rusiya və digər region dövlətlərinə qarşı tramplin yaratmaq, Qərbin qədim ”Parçala, hökm sür” prinsipindən istifadə etməkdir.

Qarşıda nə gözlənilir: Ermənistana Qərb silahlarının göndərilməsi ilə yanaşı, Moskva ilə İrəvan arasında hərbi-texniki əməkdaşlıq tamamilə dayandırılacaq. Ermənistan ordunun Qərb standartlarına keçməsinə hazırlaşır: NATO ölkələrinin hərbi komponentləri ilə maksimum qarşılıqlı fəaliyyətə nail olmaq üçün operativ döyüş hazırlığı, komanda-idarəetmə, qərargah hazırlığı alyansın standartlarına uyğun həyata keçiriləcək. Bunlar Qərb silahlarının tədarükü və Qərbin logistika standartlarına keçiddir.

Niyə hava hücumundan müdafiə sistemi ilə başlandı? Çünki bu halda ”dost və ya düşmən” identifikasiya sistemi işləyir. Əgər Ermənistana verdiyimiz hava hücumundan müdafiə sistemləri Rusiya standartlarına uyğun idisə, Ermənistanın Qərbin hava hücumundan müdafiə sistemini qəbul etməsi hərbi baxımdan respublika üçün 180 dərəcə dönüş deməkdir. Yəni, bu həm də İrəvanla Moskva arasında tam qopmaya hazırlığın əksidir. Proses tam sürətlə davam edir. İndi Ermənistanın Rusiyadan ayrılmasını daha necə ”rəsmiləşdirəcəyi”, hansı zaman çərçivəsində, bunun üçün hansı səbəblərdən istifadə edəcəyi və sonda Qərbə üz tutacağı zaman məsələsidir.





***- Aİ və ABŞ Ermənistanın Aİİ üzvlüyünü Ermənistana iqtisadi yardımla əvəz edə biləcəkmi?***

- Ermənistan Qərbin dəstəyi sayəsində öz itkiləri bahasına olsa da, 2-ci Ukraynaya çevrilə biləcək; buna heç bir şübhə yoxdur və olmamalıdır. Yaranan vəziyyətin ciddiliyini qiymətləndirməmək olmaz. Xüsusən də əgər region ölkələri baş verənləri sadəcə passiv müşahidə edirsə və heç nə etmirsə. Əgər Rusiya heç nə etməməyə davam etsə, ancaq Paşinyanın üzərinə ”köpük” yağdıran məşhur insanları ekranlara buraxmaqla kifayətlənsə və ehtiyatlılıq siyasəti ilə məhdudlaşsa, nəticə daha da pis olacaq. Bizə konstruktiv sistemli iş lazımdır. Amma bu sistemli iş yoxdur. Bu gün əldə etdiyimiz nəticə, əslində Ermənistanın itirilməsidir. Vəziyyət çox ciddidir. Bu, bizim geosiyasi maraqlarımıza, ticarət-iqtisadi əlaqələrimizin təhlükəsizliyinə, Rusiya üçün strateji əhəmiyyət kəsb edən Şimal-Cənub dəhlizinin reallaşdırılması məsələsinə toxunur. Ona görə də təəssüf ki, tendensiyalar əlverişsizdir, proqnozlar da.

Ermənistanın addımlarına qəzəblənmək, qınamaq olar. Bunun nə mənası var? Qərbin Ermənistana genişmiqyaslı nüfuzunun qarşısını almaq üçün konkret praktiki tədbirlərə ehtiyac var. Amma təəssüf ki, müşahidə etdiyimizə görə, Qərb Ermənistanla daha yaxşı işləyir. Ərazi bütövlüyünü bərpa etməyə müvəffəq olan və hazırda kifayət qədər əlverişli mövqedə olan Azərbaycanı beynəlxalq mövqelərinin ciddi şəkildə artdığını görərək Qərb Bakıya enerji sahəsində əməkdaşlıq baxımından Aİ üçün faydalı tərəfdaş olmasına baxmayaraq, getdikcə daha çox təzyiq göstərir. Və biz görürük ki, Azərbaycan həqiqətən suveren dövlət kimi ona nə qədər çox təzyiq edilirsə, ABŞ və Aİ-nin ünvanına bir o qədər tənqidi fikirlər səsləndirir. Bu, həqiqətən güclü bir yanaşmadır. Bu gün nümunəsi çox olmayan həqiqi müstəqil dövlətin yanaşması. Azərbaycana qarşı ittifaq qurulur: Ermənistan, ABŞ, Aİ, Fransa, Yunanıstan, Hindistan və digər peyk ölkələri ilə. Və buna görə də müstəqilliyə can atan, öz milli maraqlarının Qərb hegemonluğu tərəfindən boğulmasına müqavimət göstərmək istəyən region dövlətləri koordinasiyalı mövqe və fəaliyyətlərində birləşməli, konkret addımlar atmalıdırlar. Bu baxımdan Rusiya-Azərbaycan əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir.

Rusiya Qərbin sərt sanksiyaları altındadır. Bu vəziyyətdə, biz xüsusilə tərəfdaşlar və müttəfiqlərin problemləri ilə maraqlanırıq. Bu məsələdə mən Türkiyəni misal çəkə bilərəm. Qarşılıqlı fəaliyyətimiz bizə beynəlxalq mövqelərimizi möhkəmləndirməyə, öz milli maraqlarını müdafiə edən dövlətlərdən ibarət ”klub” yaratmağa və paralel idxal hesabına Rusiya iqtisadiyyatına lazım olanı almağa imkan verir. Rusiya Türkiyədə Akkuyu atom elektrik stansiyasını tikir. Qarşıda bu ölkədə daha 2 atom elektrik stansiyasının tikintisi dayanır. Və bu atom elektrik stansiyalarını potensial hücumlardan havadan qorumaq lazımdır. Ona görə də, fikrimcə, Türkiyə yeni S-400 zenit-raket komplekslərinin alınmasında maraqlı olacaq.

Bu gün mürəkkəb çoxşaxəli geosiyasi oyun gedir. Və başa düşürük ki, bu böyük oyunu uduzmaq Rusiyanın Qərb tərəfindən məhv edilməsi deməkdir. Ona görə də, bizə bu və ya digər şəkildə dəstək verən istənilən dövlət bizimlə konstruktiv münasibətlər qurur, bizim tərəfdaşımız və müttəfiqimiz olur. Və bu gün bizim üçün çətin məqamda xəyanət edənlər, düşmənlərimizlə dostluq edənlər, Rusiyanı əvəz etmək və ona zərər vermək üçün öz ərazilərində Qərbin güc komponentlərini yerləşdirənlər- bunlar bizim rəqiblərimizdir. Onları birbaşa olaraq təsnif etməyin vaxtı gəldi. Dəvəquşu kimi başını quma basdırıb ”hər şey yaxşıdır” deməyi dayandırmaq lazımdır. Ermənistanla münasibətlərdə hər şey pisdir. Ermənistan Rusiyaya xəyanət edir. Bu gün Ermənistan təəssüf ki, Rusiyaya düşmən ölkədir. Paşinyan Ermənistan dövlətinin qanuni başçısıdır, erməni seçicilərinin əksəriyyəti ona səs verir. Ona görə də ona səs verənlərin hamısı Paşinyanın Rusiya ilə münasibətləri pozmağa yönəlmiş siyasi kursunu dəstəkləyir. Bu, yeni siyasi reallıqdır. Biz bunu dərk etməliyik və ən əsası hərəkətə keçməliyik və oturub Ermənistanla ”əsl dostluq” haqqında mantranı təkrarlamağa davam etməməliyik. Yunanıstan və Bolqarıstanla ”qardaşlıq”, dostluq haqqında da eyni şeyi dedik. Nəticə nədir? Tarixən müdafiə etdiyimiz bu ölkələr bu gün bizə xəyanət ediblər. Rusiya dövlətinin və rus əsgərlərinin onlara kömək etməsinə, təhlükəsizliyini gücləndirməsinə baxmayaraq, bu gün onlar Rusiyanın əleyhdarına çevriliblər.

***- Son həftələrdə Ermənistandan Azərbaycanla sərhəddə və Qarabağda gördüyümüz atışmalar niyə birdən-birə peyda oldu?***

- Düşünürəm ki, bunlar Brüsseldəki üçtərəfli görüşlə bağlıdır. Paşinyanın məqsədi çox sadədir: məhdud miqyaslı yeni silahlı qarşıdurmanı qızışdırmaq. Azərbaycanı Ermənistan tərəfinin son vaxtlar atəş açdığı bir sıra yeni mövqeləri tutmağa təhrik etmək. Bu vəziyyət o deməkdir ki, İrəvanda yenə qışqıracaqlar: ”KTMT bizi qorumur”. Baxmayaraq ki, Ermənistanın özü ənənəvi olaraq toqquşmalara səbəb olur. Və sonra- Aİ-nin müşahidə missiyasının Ermənistanın KTMT-nin





müdafiə etmədiyi, ”təcavüz” qurbanına çevrildiyi barədə hesabatlarını açıqlamaq. Bu, İrəvana kömək üçün Qərbə üz tutmaq və onu elə təqdim etmək imkanı verəcək ki, Ermənistanda Rusiya deyil, Qərbin hərbi bazalarının yerləşdirilməsinə dair ictimai rəyə dəstək olsun. Fəaliyyətin məntiqi və taktikası belə bir şeydir.

***- Paşinyan bildirib ki, Ermənistan hakimiyyəti hələ də düşünür: mayın 8-də Moskvada keçiriləcək Aİİ-nin yubiley sammitinə getmək, ya yox. Ermənistanın strukturun hazırkı sədri olmasına baxmayaraq və məntiqlə bu sammit İrəvanda keçirilməli idi...***

- Burada çox güman ki, Paşinyanın mayın 9-da Qırmızı Meydanda keçiriləcək Qələbə Paradında iştirak edib-etməyəcəyi, yeni Ermənistanın baş nazirinin Rusiyaya qarşı müsbət jest nümayiş etdirib-etməyəcəyi ilə bağlı vəziyyət yaranır. Əgər o, artıq müzakirələrin hələ də davam etdiyini bəyan edirsə, yəqin ki, dərhal imtina edə bilməz. Dmitri Peskov Putinlə Paşinyan arasında yaxın gələcəkdə mümkün təmaslara eyham vurub. Bu o deməkdir ki, Rusiya lideri respublika hakimiyyətinin mövqeyinin zərərli olduğunu yenə də ermənilərə şəxsən izah edə bilər.

Nikol Paşinyanın bu cür bəyanatları, mən deyərdim ki, artıq qeyri-dost xarakter daşıyır, Ermənistanın Rusiyaya qarşı şantaj xarakteri daşıyır.

Açığı, Qərbin Paşinyana vəd etdiyi bonusların təsiri var. Hər halda, Ermənistanın baş naziri çox böyük səhvlərə yol verir. Bəli, hamı çox vektorlu olmaq istəyir. Yaxşı, hamı ilə münasibət qurursunuz, amma diqqətli olmalısınız. Amma Ermənistan hakimiyyəti tərəfindən hər şey şüurlu şəkildə edilir: Rusiya ilə münasibətlər bilərəkdən və nümayişkaranə şəkildə pozulur, Rusiya tənqid olunur. İndi biz Paşinyandan hansı salto gözləyə bilərik? Yeri gəlmişkən, Ermənistanın indiki maliyyə-iqtisadi vəziyyəti ilə əvvəlkini müqayisə etmək olmaz. Ona görə də Rusiya ən pis ssenarilərə hazırlaşmalı və onların qarşısını necə alacağını əvvəlcədən planlaşdırmalıdır. Ardıcıl və israrla Ermənistana xəbərdarlıq siyasətini davam etdirmək mənfi təsirdən başqa heç bir nəticə verməyəcək, əksinə problem yaradacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Yaşıl enerji: “SOCAR Green” nə vəd edir?

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Ekologiya və ətraf mühitin mühafizəsi” istiqaməti çərçivəsində hazırlanıb



Məlum olduğu kimi, Azərbaycan bu ilin noyabr ayında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi Konfransına (COP29) ev sahibliyi edəcək. Bu, 2023-cü ilin 30 Noyabr-12 Dekabr tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən və COP28 adlandırılan 28-ci konfransda bəlli oldu. Konfransda dünyanın 195 ölkəsindən təxminən 97 min nəfərdən çox nümayəndə heyəti iştirak etdi. İştirakçılar əsasən dövlət rəsmiləri, özəl sektoru təmsil edənlər, alimlər, tədqiqatçılar, ekspertlər, mətbuat nümayəndələri və digər əlaqədar tərəflər olub. Bakıda keçiriləcək COP29 konfransı çərçivəsində dünyanın təxminən 190-dan çox ölkəsini təmsil edən 80-100 min nəfərə qədər nümayəndə heyətinin qəbul edilməsi gözlənilir.

COP-un missiyası konvensiyadan irəli gələn tələblərin, tövsiyələrin icrasına nəzarət etməkdir. Bu tələblər əsasən qlobal istiləşmə tempini səngitmək, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasına dəstək olmaq və 2050-ci ilə qədər ”0” emissiyaya nail olmaqdır. Hər il keçirilən konfransa (COP) rəhbərlik və ev sahibliyi BMT-nin 5 regional qrupunu təmsil edən 198 ölkənin səsverməsi ilə seçilir. Bunlar Afrika ölkələri, Asiya ölkələri, Latın Amerikası və Karib ölkələri, Mərkəzi və Şərqi Avropa ölkələri, Qərbi Avropa və digər ölkələrdir.



Bu il konfransa ev sahibliyi edəcəyimiz bəlli olduqdan sonra rəsmi Bakı bərpa olunan və yaşıl enerjiyə keçid üçün bir sıra vacib addımlar atdı. Bu addımlardan ən birincisi Azərbaycan Prezidentinin 25 dekabr 2023-cü il tarixli sərəncamı ilə 2024-cü ilin ”Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi oldu. Bundan sonra 16.5 milyon dollarlıq kapitalı olan ”SOCAR Green” MMC yaradıldı. Sözügedən sərəncamdan irəli gələn tapşırıqlar çərçivəsində təsis olunan şirkətin əsas məqsədi SOCAR-ın strateji bərpaolunan enerji layihələrinin effektiv idarə edilməsi, bu sahədə beynəlxalq tərəfdaşlar ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi, habelə neft-qaz əməliyyatlarında dekarbonizasiya proseslərinə dəstək göstərməkdir.



”Socar Green”, bərpaolunan enerjinin istehsalı, karbon emissiyalarının azaldılması, utilizasiyası kimi layihələrin icrası, ölkə üzrə karbon emissiyasının azaldılması üçün strateji yol xəritələrinin hazırlanmasını həyata keçirəcək. Həmçinin, şirkət, qeyd olunan sahələrdə beynəlxalq təcrübələrin öyrənilməsini və ölkəmizdə tətbiqini həyata keçirəcək.

Qeyd edək ki, ”SOCAR Green” Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti ilə birgə ”Meqa” layihəsini həyata keçirəcək. İlkin mərhələdə quruda 1 QVt gücündə külək və günəş enerjisi layihəsi icra ediləcək. BP şirkəti ilə birgə ”Şəfəq” layihəsi çərçivəsində Cəbrayıl rayonunda 240 MVt gücündə günəş enerjisi layihələri planlaşdırılır. Həmçinin ”SOCAR Green” şirkəti vasitəsilə ”ACWA Power”, ”Masdar” və ”Energy China” şirkətləri ilə birgə Naxçıvan Muxtar Respublikasında günəş və külək enerjisi layihələrinin icrası planlaşdırılır.

”SOCAR Green” şirkəti, adlarını qeyd etdiyimiz nüfuzlu şirkətlərlə əməkdaşlıq etməklə SOCAR üçün yeni biznes imkanlarının yaradılmasına, təbiətə zərər vermədən əldə edilən yaşıl enerji istiqamətli layihələrin Azərbaycanda və xaricdə həyata keçirilməsinə təkan verəcək. Bu istiqamətdə atılan addımlar həm də kadr bazasının formalaşdırılmasına və mövcud potensialın gücləndirilməsinə xidmət edəcək.



Bildiyimiz kimi, mədən yanacaqları Azərbaycan iqtisadiyyatının və sənayesinin əsasını təşkil edir. Qalıq yanacaqlardan əldə edilən gəlir Azərbaycanın ixrac gəlirlərinin təxminən 90%-ni təşkil edir və hökumətin ən böyük gəlir mənbələrindən biridir. Hər şeydən əvvəl, ”Socar Green”in yaradılması COP29-dan çox Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. ”Socar Green” şirkətinin məqsədləri arasında günəş və külək enerjisi layihələri, yaşıl hidrogen istehsalı və karbon emissiyalarının azalmasına sərmayə qoymaq var. Bu investisiya Azərbaycana Aİ üzv dövlətlərinə yaşıl enerji ixracında daha etibarlı tərəfdaş kimi seçilməyə imkan verir.

Regionun ən böyük qaz ixracatçısı olan Azərbaycan üçün enerji təminatında yaşıl enerji alternativinin əlavə edilməsi, ölkəmizin enerji ixracına əlavə dəyər qatacaq. Azərbaycan Energetika Nazirliyi 2023-cü il üçün qaz, neft və elektrik enerjisi hasilatı göstəricilərinə görə, 2023-cü ildə Azərbaycanda 48,3 milyard kubmetr təbii qaz hasil edilib. Bu, 2022-ci illə müqayisədə 37% artım deməkdir. Bunun 12,9 milyard kubmetri ”Azəri-Çıraq-Günəşli” yatağından, 26,2 milyard kubmetri ”Şahdəniz” yatağından, 0,8 milyard kubmetri isə ”Abşeron” yatağından hasil edilib.

SOCAR il ərzində 8,4 milyard kubmetr qaz hasil edib. 2022-ci ildə bu rəqəm 8,1 milyard kubmetr təşkil edəcək. 2023-cü ildə qaz ixracı 23,8 milyard kubmetr təşkil edib. Bu, əvvəlki illə müqayisədə 5% artım deməkdir. Bunun 11,8 milyard kubmetri Avropaya, 9,5 milyard kubmetri Türkiyəyə, 2,5 milyard kubmetri isə Gürcüstana satılıb. Azərbaycanda 2023-cü ildə kondensat da daxil olmaqla ümumilikdə 30,2 milyon ton xam neft hasil edilib. Bu göstərici 2022-ci illə müqayisədə 7% azalıb.

”Azəri-Çıraq-Günəşli” yatağının payı 17,8 milyon ton olduğu halda, ”Şahdəniz”in payı 4,3 milyon ton, ”Abşeron”un payı isə 0,3 milyon ton olub. SOCAR-ın neft hasilatı 7,8 milyon ton olub. 2023-cü ildə neft ixracı 25,2 milyon ton olub. Bu, əvvəlki illə müqayisədə 5% azalma deməkdir. Azərbaycanda ümumi elektrik enerjisi istehsalı əvvəlki illə müqayisədə 1% artaraq 2023-cü ildə 29,3 TVt/saata çatıb. Bunun 27,2 TVt/saat istilik elektrik stansiyalarının, 1,8 TVt/saat su elektrik enerjisi, 57 GVt/saat külək, 79 GVt/saat günəş, 223 GVt/saat tullantı istilik qurğularının payına düşüb. Bu enerji istehsalının böyük hissəsini ”Azərenerji” həyata keçirib.

İqtisadiyyatda və ölkə siyasətində atılan addımlar Azərbaycanın yaşıl enerjin və bu sahəyə yatırılan investisiyalar istiqamətində qərarlı olduğunu göstərir. Azərbaycanın bərpa olunan enerji potensialını qiymətləndirmək istəməsi ölkə üçün faydalı addımdır. Külək enerjisi fikri, Günəş, hidroenergetika, geotermal və biokütlə enerjisi kimi digər alternativ enerji mənbələrindən fərqli olaraq, istehsal çətinliyi, ətraf mühitə təsiri və tükənməzliyi səbəbindən istehsal üçün Azərbaycana ən uyğun variantdır. Abşeron yarımadası,



Xəzər dənizinin sahilyanı əraziləri, Gəncə, Daşkəsən və Naxçıvan Muxtar Respublikasının Şərur, Culfa rayonları ən yüksək külək enerjisi potensialına malik rayonlardır.

Günəş enerjisindən istifadənin inkişafı da Azərbaycanın bir çox regionlarında enerji problemini qismən həll edə bilər. Qeyd edək ki, günəş elektrik stansiyalarının səmərəliliyi ölkənin təbii iqlimindən və coğrafi mövqeyindən asılıdır. Bir il ərzində 1 m2 yerə düşən günəş enerjisinin miqdarı ABŞ-da 1500-2000 kVt/saat, Rusiyada 800-1600 kVt/saat, Çində 1800-2000 kVt/saat, 1200-1200 kVt/saatdır. kVt/saat Fransada 1400 kVt/saat, Azərbaycanda isə 1500-2000 kVt/saatdan ibarətdir. Göründüyü kimi, Azərbaycan torpaqlarına düşən günəş işığının miqdarı bəzi ölkələrlə müqayisədə çoxdur. Bu, ölkəmizdə günəş enerjisinə qoyulacaq investisiyaları dəyərli edir.

Qeyd edək ki, Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizədə qətiyyətli hədəflər planlayır. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

**Lalə Mehralı**

SON SƏHİFƏ

# SƏS

16 aprel
2024-cü il

## "Həmin cütlüklər məsciddə kəbin oxutdura bilməzlər"

*DİN XADİMİ AÇIQLADI*



"Sonuncu, əbədi və ən mükəmməl din olan İslam təlimləri insan həyatının bütün sahələrində öz sözünü deməlidir. Bu sahələrdən biri, daha doğrusu ən önəmlisi iki əks cinsin birləşərək yeni nəsil yaratmasıdır. Yeni insanın həyata qədəm qoyması ən həssas məsələdir". Bu sözləri SİA-ya açıqlamasında din xadimi Mircəfər Əyyubov deyib. Onun sözlərinə görə, bütün bunlara əsasən nikaha baxış İslamda çox önəmlidir: "Həm dini, həm də psixoloji baxımdan uşaq ana bətnindən etibarən mənən formalaşmağa başlayır və yeni bir şəxsin təməli ilahi dəyərlərlə başlanmasa, sonralar bir çox fəsadlar törədə bilər".

O, sözlərinə belə davam edib: "Nikah İslamda kəbin kəsmək və ya əqd oxumaq kimi qeyd olunur. Bu prosesin məhz dini məkanlarda olması vacib deyil, lakin dini və fiqhi qaydalara uyğun olması olduqca vacibdir. Rəsulullah s buyurmuşdur ki, evlənmək dinin yarısını qorumaq deməkdir. Belə bir həssas məsələnin ötəri və əhəmiyyətsiz hesab olunması qəbuledilməzdir. Bu gün dünyada qeyri- qanuni dünyaya gələn uşaqların sayı hesabı yoxdur və bundan bütün aydın düşüncələr narahatdır. Odur ki, bu məsələ xüsusi diqqət tələb edir.

Nikah üçün oğlanın ixtiyarı tamamilə özündədir. O sadəcə məsləhət ala bilər lakin qərarı özü verə bilər. Xanım isə ürəyi təmiz və sadə olduğu üçün aldanmasın deyə atasından icazə almalıdır. Qızın ixtiyarinin yarısı özündə, digər yarısı isə atasındadır. Yəni əgər qız razı olduğu halda atası razı olmasa kəbin düzgün deyil, əksinə, ata razı olsa və qız razı olmasa yenə də nikah düzgün deyil. Əlbəttə qızın bu arada bir imtiyazı vardır, o da bundan ibarətdir ki, əgər ata əsassız olaraq razı olmasa ixtiyar tamamilə qıza keçir. Bəy xanımı hər hansı bir mali dəyər əvəzinə almalıdır və buna dində mehriyyə deyilir. Hazırda dövlət tərəfindən xanımların aldatmasının qarşısının alınması üçün məscid imamlarına tapşırıq verilib ki, dövlət qeydiyyatı olmayan cütlüklər hər hansı bir rəsmi məsciddə kəbin oxutdura bilməzlər. Bu dini qanun deyil və qeyd olunduğu kimi xanımların hüquqlarının qorunması məqsədilə həyata keçirilən bir qaydadır. Xilqət insan üçün yaradılan bir məkandır, bu məkana yaradanın izni olmadan gəlmək doğru deyil və bu iznə kəbin deyilir. Bu arada, kəbinsiz doğulan körpələrin dinə əsasən qətiyyən təqsiri yoxdur, yəni buna görə uşağı körpə ikən və ya gələcəkdə hər hansı təzyiqə məruz qoymaq ən böyük və bağışlanması çətin olan günahlardandır".

*Ayşən Vəli*


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Boşanmaq istəyənlər 15 dollar rüsum ödəyəcək - qanunda dəyişiklik...



***Məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının qeydə alınmasına görə yeni rüsum müəyyənləşir. Trend xəbər verir ki, bu barədə məsələ "Dövlət rüsumu haqqında" qanuna təklif edilən dəyişiklikdə əksini tapıb. Layihəyə əsasən, qanuna yeni maddə əlavə olunur. Yeni maddəyə əsasən, bu rüsumun 15 dollar olması təklif edilir.***

Belə ki, rüsum məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının qeydə alınmasına (qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə) görə (qətnamədə dövlət rüsumunun tərəflərdən hansının ödəməli olduğu göstərilmədikdə birinci müraciət etmiş tərəfdən) ödənilir.

## "Toyota Prius"ların aqibəti necə olacaq?

*MÜNASİBƏT*




Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarına görə, 2016-cı ildən əvvəlki illərdə istehsal olunan avtomobillərlə taksi fəaliyyəti ilə məşğul olmağa icazə verilməyəcək. Bəs ölkədə sayı çoxluq təşkil edən və yaşı 15-dən aşağı olan "Toyota Prius"ların aqibəti necə olacaq? Qərar hansı nəqliyyat vasitələrinə aiddir? SİA mövzu ilə bağlı nəqliyyat eksperti Aslan Əsədovun fikirlərini öyrənib. O bildirib ki, bu fəaliyyətlə bağlı ümumi müzakirələr gedir: "Çünki son aparılan islahatlar nəticəsində avtomobillərin gəncləşməsi və daha az yaşı olan nəqliyyat vasitələrinin taksi fəaliyyəti üçün icazələrinin, yəni lisenziyaların verilməsinə başlanılacaq. Burada məqsəd taksi parkının yenilənməsi, cavanlaşmasıdır.

Əvvəlki illərin avtomobilləri nə kimi fəaliyyət göstərə bilər? Bunun üçün müəyyən metodlar vardır. Misal üçün "Karşerinq" xidmətləri vardır. Bu xidmətlərin əsas məqsədi ondan ibarətdir ki, taksi fəaliyyəti ilə məşğul olmayacaq nəqliyyat vasitələri bu xidmətdən yararlansın. Yaxud, şəxsi avtomobil kimi idarə olunması, xarici ölkələrə ixrac edilməsi mümkün olsun. "Prius" və digər avtomobillər daha çox ehtiyac olunan qonşu dövlətlərə, Mərkəzi Asiya ölkələrinə ixrac edilə bilər. Tranzit rolu oynamaqla bərabər Azərbaycandan bu nəqliyyat vasitələrinin ixracına ehtiyac ola bilər. Digər tərəfdən isə nəqliyyat vasitələrinin əsas meyarı, ölçüsü ümumi istifadə olunan nəqliyyat vasitələrinin ölkənin avtomobil parkına adaptasiyasıdır. İstənilən növ nəqliyyat vasitəsinin adaptasiyası üçün mütləq onun texniki göstəriciləri və ümumi kateqoriya sinfinə aid olmasına əsaslanmalıdır. Yəni bir nəqliyyat vasitəsinin profili müxtəlif sahədə ola bilər. Əgər söhbət "Prius"dan gedirsə, gündəlik "Rent a car" avtomobili kimi "Prius" istifadə oluna bilər. Məqsəd "Prius"lardan pul qazanmaqdırsa, müəyyən yönləndirici faktorlardan istifadə etməklə yenə də pul qazanmaq mümkündür".

*Söylü Ağazadə*

## Bu abituriyentlər də kolleclərin ixtisas seçimində iştirak edə biləcək

*YENİLİK*



Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqə şərtini ödəmiş, lakin 1-15 mart tarixlərində keçirilən ərizə qəbulu zamanı "Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək istəyirəm" bəndini seçməyən abituriyentlərə yayda kolleclərin ixtisas seçimində iştirak etməyə icazə veriləcək. Bu barədə SİA-ya Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Qeyd edək ki, ali təhsil müəssisələrinə tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu əvvəlcədən elan olunduğu kimi, 11 may - 31 iyul tarixlərində internet vasitəsilə aparılacaq.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200